# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 27 (1467) ❖ Cümə, 12 sentyabr 2025-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Yaradıcılıq Evində yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən kompleksin ərazisi 3 hektara yaxındır. Burada "suite" və "standart" tipli olmaqla ümumilikdə 43 otaq var. Kompleksdəki 174 yerlik konfrans zalında müxtəlif tədbirlərin, o cümlədən yaradıcılıq gecələrinin, yazıçılarla görüşlərin və digər mədəni tədbirlərin keçirilməsi mümkün olacaq. Burada kinoteatr, kitabxana, qapalı, həmçinin açıq havada restoranlar, kafe, fitnes zonası da fəaliyyət göstərəcək. Eyni zamanda, futbol, tennis və uşaq oyun meydançaları da istirahət edənlərin ixtiyarına veriləcək.

Qeyd edək ki, kompleksin bu cür müasir səviyyədə inşası ölkəmizdə yaradıcı insanların fəaliyyətinə göstərilən dövlət diqqətinin növbəti təzahürü olmaqla, ilk növbədə, onların istirahətinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət nəticəsində yaradılmış şərait mədəniyyət və incəsənət sahəsində çalışanların fəaliyyətinin daha da canlanmasına səbəb olmaqla yanaşı, bu sahənin inkişafına mühüm töhfə verir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yaradıcı şəxslərin fəaliyyətinin stimullaşdırılması, onların əməyinə yüksək qiymətin verilməsi, sosial təminatlarının, mənzil-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Bundan başqa, istirahət və yaradıcılıq imkanlarının genişləndirilməsi məqsədilə yaradıcılıq ittifaqlarının, yaradıcılıq evlərinin və sanatoriyaların fəaliyyəti də dövlət səviyyəsində dəstəklənir.

# Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında memorandum imzalanıb

**Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında anlaşma memorandumu imzalanıb.**

AZƏRTAC xəbər verir ki, memorandumu Müqəddəs Taxt-Tacda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi imzalayıblar.

Sənədin məqsədi elm və tədqiqat sahəsində birbaşa əməkdaşlıq və təcrübə mübadiləsini dəstəkləmək, həmçinin Vatikan arxivlərində Azərbaycan tarixi ilə bağlı sənədlərin araşdırılması, qorunması və rəqəmsallaşdırılmasını təmin etməkdir.

1475-ci ildə təsis edilən Vatikan Apostol Kitabxanası dünyanın ən qədim və nüfuzlu elmi mərkəzlərindən biri hesab olunur. Zəngin fonduna nadir əlyazmalar, inkunabullar, qədim xəritələr və müxtəlif dillərdə dəyərli nəşrlər daxil olan bu kitabxana yalnız ixtisaslaşmış tədqiqatçılar üçün açıqdır. Vatikan Apostol Arxivi isə 1612-ci ildə Papa V Pavelin fərmanı ilə kitabxanadan ayrılaraq



müstəqil qurum kimi formalaşıb. Burada Müqəddəs Taxt-Tacın əsrlər boyu apardığı diplomatik yazışmalar, papaların fərmanları, inzibati qeydiyyatlar və digər rəsmi sənədlər qorunur. Arxiv bu gün dünya üzrə ən mühüm və tədqiqatçılar üçün qiymətli olan tarixi mənbələrdən biri kimi tanınır.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Sizi Amerika Birləşmiş Ştatlarında ən yüksək səviyyədə Azərbaycanla Ermənistan arasında Sülh müqaviləsinin bağlanmasına dair mühüm sənədlərin imzalanmasına nail olmağınız münasibəti ilə Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi adından ürəkdən təbrik edirik.

Azərbaycan Respublikasının Prezidenti və Müzəffər Ali Baş Komandan kimi Sizin liderliyinizlə Azərbaycan torpağı olan Qarabağın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə nail olmağınız Azərbaycan dövlətçiliyi və xalqımız qarşısında təkrarsız və misilsiz xidmətin parlaq ifadəsidir.

Amerika Birləşmiş Ştatlarında Azərbaycanla Ermənistan arasında Sülh müqaviləsinin paraflanmasına dair ən yüksək səviyyədə sənədlərin imzalanması isə Müzəffər Ali Baş Komandan kimi Dəmir Yumruğunuzla Qarabağda qazandığımız tarixi Zəfərin uğurla başa çatdırılması, əbədi sülhün əldə olunması baxımından müstəsna dərəcədə böyük əhəmiyyətə malik olan tarixi hadisədir.

Eyni zamanda, Avropa ilə Asiyanı birləşdirən ən əlverişli nəqliyyat marşrutu olacaq və ölkəmizin regionlarını əlaqələndirəcək Zəngəzur dəhlizinin açılmasına dair əldə etdiyiniz tarixi razılaşma da Sizin region dövlətlərinin hamısı üçün faydalı ola biləcək mühüm bir beynəlxalq layihənin həyata keçirilməsinə ən yüksək səviyyədə təminat əldə etməyinizin möhtəşəm yekunudur.

**Möhtərəm cənab Prezident!**

Böyük diplomatik məharətinizlə və möhkəm siyasi iradənizlə baş verən bu mühüm tarixi hadisələr müstəqil Azərbaycan dövlətinin dünyadakı yüksək nüfuzunun daha bir sübutudur. Dünyada və regionda sülhə, inkişafa, əməkdaşlığa nail olmaq yollarında atdığınız qətiyyətli və düşünülmüş addımlar Sizin böyük beynəlxalq nüfuza malik qüdrətli liderliyinizin real təntənəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi, Azərbaycan alimləri möhkəm surətdə inanırlar ki, Siz bundan sonra da müstəqil Azərbaycan dövlətinin daha da inkişaf etdirilərək möhkəmləndirilməsi, dünyada və regionda ədalətin, daimi sülhün və əməkdaşlığın bərqərar olması yollarında dönmədən mübarizə aparacaq, ölkəmizi ən yüksək inkişaf etmiş dövlətlərin sıralarına çatdıracaqsınız.

Siz müasir dünyaya ilk növbədə doğma xalqı və müstəqil dövləti üçün, eyni zamanda həm də bəşəriyyət üçün zəruri və əhəmiyyətli bir lider olmağın nümunəsini göstərirsiniz.

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi böyük uğurla apardığınız məqsədyönlü və qətiyyətli daxili və xarici siyasəti ürəkdən dəstəkləyir. Sizin Azərbaycanın müasir inkişafını tarixi Zəfərlər dastanına çevirməyiniz xalqımız, xüsusən yeni nəsillər üçün çox mühüm dövlətçilik və vətənpərvərlik nümunəsidir. Okeanın o tayında qazandığınız böyük siyasi və diplomatik qələbə bütün dünyada ardıcıl və ədalətli siyasətin uğurla başa çata biləcəyinə dərin inam yaratmışdır. Azərbaycan xalqının bütün təbəqələri kimi, Azərbaycan alimləri də Sizin simanızda özünün qüdrətli lideri ilə fəxr edirlər.

Sizə - möhtəşəm Azərbaycanın liderinə möhkəm cansağlığı, ölkəmizin daha da inkişaf etdirilməsi və dünyada ədalətin qələbəsi yollarında apardığınız qətiyyətli mübarizədə daha böyük uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti**

# AMEA-da Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş müşavirə

**AMEA-nın Rəyasət Heyətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vaşinqtonda imzaladığı üçtərəfli bəyannamənin müddəaları və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın Rəyasət Heyətinin üzvləri, AMEA-nın müşavirləri, Milli Məclisin deputatları, Rəyasət Heyəti aparatının şöbə müdirləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları, elmi katibləri, gənc alimləri və aidiyyəti şəxslər iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan akademik İsa Həbibbəyli qeyd edib ki, 8 avqust 2025-ci il tarixində Prezident İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalayıblar və bunun ardınca Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnini paraflayıblar. Akademik İsa Həbibbəyli bildirib ki, əldə edilmiş razılaşma Prezident İlham Əliyevin uzun illərdir apardığı yorulmaz, çoxcəhətli fəaliyyətinin nəticəsidir və bu uğurun dünyanın bir nömrəli dövlətinin paytaxtında baş tutması dövlətimizin başçısının nüfuzunun bariz göstəricisidir.

AMEA rəhbəri vurğulayıb ki, bu Bəyannamə və Saziş mətninin paraflanması Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmini baxımından tarixi hadisə, Prezident İlham Əliyevin böyük siyasi, diplomatik qələbəsidir.

Bu qələbəyə gətirib çıxaran tarixi hadisələri diqqətə çatdıran AMEA prezidenti bildirib ki, Ali Baş Komandan İlham Əliyevin liderliyində 44 günlük Vətən müharibəsində əldə edilmiş Zəfər, 19-20 sentyabr 2023-cü il tarixlərində həyata keçirilən antiterror tədbirlərilə dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa olunması nəticəsində tam qələbəmiz təmin edildi, sülh sazişinin paraflanması isə qəti qələbəmizi təsdiqlədi: "8 avqust Birgə Bəyannaməsi yekun sülh sazişinin qaçılmaz olduğunu təsdiqləyir. Azərbaycanın və Ermənistanın sülh sazişinin mətnini paraflaması qəti qələbəmizdən xəbər verir. Prezident İlham Əliyev tam və qəti qələbəmizin müəllifidir. Bu, Azərbaycan tarixinin təkrarolunmaz hadisəsidir. Azərbaycanın min illik tarixində İlham Əliyevin əbədi möhürüdür".

Akademik İsa Həbibbəyli qeyd edib ki, paraflanmış mətn artıq Azərbaycan və Ermənistan ictimaiyyətinə təqdim olunub və qonşu ölkənin konstitusiyasında ölkəmizə və Türkiyəyə qarşı düşmənçiliyi ifadə edən sözlərin çıxarılmasından sonra yekun sazişin imzalanması baş tutacaq.

AMEA rəhbəri bildirib ki, Prezident İlham Əliyevin Vaşinqtonda əldə etdiyi digər bir tarixi nailiyyət isə ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı qərarın qəbul olunması olub və bununla bağlı tərəflər rəsmi şəkildə ATƏT-ə müraciət ünvanlayıblar və bu addım beynəlxalq ictimaiyyət tərəfindən də dəstəklənir.

Prezident İlham Əliyevin Vaşinqton səfərinin bir çox tarixi nailiyyətlərlə yadda qaldığını qeyd edən akademik İsa Həbibbəyli bunlardan digər önəmli hadisənin isə ABŞ-ın ölkəmizə qarşı qəbul etdiyi 907-ci düzəlişin 33 il sonra Azərbaycan Prezidentinin qətiyyətli xarici siyasəti nəticəsində qüvvədən düşməsi olduğunu deyib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin ABŞ Prezidenti ilə birgə keçirdiyi görüşdə əldə olunan ən böyük razılaşmadan biri də ölkəmizin əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək Zəngəzur dəhlizi, yəni "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsi üzrə razılığın əldə edilməsi olub. Zəngəzur dəhlizinin istifadəyə verilməsinin region dövlətləri üçün əhəmiyyətini vurğulayan akademik İsa Həbibbəyli marşrutun açılması ilə Qədim İpək yolunun bərpa olunacağını, bundan ilk növbədə blokada şəraitində yaşayan Ermənistanın iqtisadi cəhətdən faydalanacağını söyləyib.

Cənab Prezidentin Vaşinqtonda əldə etdiyi tarixi nailiyyətlərin cəmiyyətdə, mediada, sosial şəbəkələrdə və beynəlxalq elmi müstəvidə təbliğində Azərbaycan alimlərinin üzərinə böyük məsuliyyət düşdüyünü deyən akademik İsa Həbibbəyli AMEA əməkdaşlarının məqalə və müsahibələrlə mediada çıxış etmələri, respublika və beynəlxalq konfranslarda bu mövzuda məruzələr təqdim etmələri barədə tapşırıqlarını verib, bunun alimlərimizin dövlətimiz qarşısında mənəvi borcu olduğunu bildirib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, dövlət başçısının uzun illər ərzində apardığı uğurlu xarici siyasət nəticəsində Vaşinqtonda Ermənistanla sülh sazişinin mətninin paraflanması, ATƏT-in Minsk qrupunun ləğvi, Zəngəzur dəhlizinin açılması və 907-ci düzəlişin ləğvi ilə bağlı qəbul olunmuş tarixi qərarlar xalqımız tərəfindən yüksək qiymətləndirilir. Akademik İsa Həbibbəyli AMEA-nın çoxminli kollektivi adından bizə yaşatdığı misilsiz zəfərlərə və qürur dolu anlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, dövlətimizin güclənməsi naminə yorulmaz fəaliyyətində ölkə başçısına cansağlığı, uğurlar arzulayıb.

Sonra çıxış edən AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova bildirib ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri Azərbaycan tarixinin mühüm mərhələlərindəndir və sülhə, tərəqqiyə xidmət edən tarixi bir ziyarətdir. Vurğulayıb ki, bu səfərin nəticələri beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir və Prezident İlham Əliyev dünya miqyasında nüfuzlu lider kimi qəbul olunur. O, həmçinin bu bəyannamənin regionda biomüxtəlifliyin bərpasına da öz töhfəsini verəcəyini söyləyib.

AMEA-nın müşaviri akademik Yaqub Mahmudov isə çıxışında qeyd edib ki, bugünkü tədbir Azərbaycan Prezidentinin tarixi uğurlarına elmimizin mövqeyinin nümayişidir. O bildirib ki, elmi informasiya hazırlanması məsələsi daim dövlət başçımızın diqqət mərkəzində olub və bu gün yaşadığımız şanlı tarix onun birbaşa əsəridir.

Milli Məclisin deputatı filologiya elmləri doktoru Elnarə Akimova bildirib ki, Vaşinqtonda sülh sazişinin paraflanması 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin diplomatik nəticəsidir və Prezident İlham Əliyevin uzun illərdir apardığı güclü uzaqgörən xarici siyasətin şərəfli yekunudur.

AMEA-nın akademik-katibi akademik Arif Həşimov çıxışında diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin Vaşinqtonda əldə etdiyi tarixi nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının və arzularının təcəssümüdür.

Müşavirədə çıxış edən Milli Məclisin deputatı tarix elmləri doktoru Vasif Qafarov isə vurğulayıb ki, Azərbaycan heç zaman bu qədər güclü olmayıb və son 5 ildə dövlətimizin bütün maraqları aparılan güclü diplomatik siyasət nəticəsində təmin edilir. Vətən müharibəsindən sonra Azərbaycanın sülh yolunu əsas tutduğunu deyən Vasif Qafarov qeyd edib ki, bu addım regionda təhlükəsizlik və əməkdaşlıq üçün geniş perspektivlər açıb. Bildirib ki, Vaşinqton zəfəri Prezident İlham Əliyevin siyasi qətiyyəti və diplomatik bacarığının nəticəsidir.

Tədbirdə, həmçinin AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri siyasi elmlər doktoru Ramilə Dadaşova və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Arzu İsgəndərzadə çıxış edərək Vaşinqton Bəyannaməsi ilə Azərbaycanın yeni tarixi dövrə qədəm qoyduğunu, bu yeni tarixi mərhələnin memarının Prezident İlham Əliyev olduğunu söyləyiblər.

Sonda çıxış edən akademik İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan xalqı, o cümlədən alimlərimiz Prezident İlham Əliyevin paraflanmış sülh sazişini uğurla yekunlaşdıracağına tam inanır və hər zaman olduğu kimi, gələcəkdə də bu və digər şərəfli işlərində daim dövlət başçımızın yanında olaraq öz dəstəklərini əsirgəməyəcəklər.

# Akademiyanın 80 illiyinə hazırlıq məsələlərinin müzakirəsi

**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Rəyasət Heyətinin binasında Meridian iclas zalında Akademiyanın 80 illiyinə hazırlıq məsələlərinə həsr olunmuş müşavirə keçirilib.**



Ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamının icrası ilə bağlı ətraflı məlumat verən akademik İsa Həbibbəyli qarşıda duran digər məsələlər barədə danışıb.

İndiyədək ölkə daxilində Qarabağ Universitetində, Akademiyanın Naxçıvan Bölməsində, eləcə də ölkədən xaricdə Türkiyənin Ankara və İstanbul şəhərlərində ilk dəfə olaraq Akademiyanın 80 illiyi ilə bağlı tədbirlərin keçirildiyini və bu toplantıların tarixi əhəmiyyətini qeyd edən akademik İsa Həbibbəyli yekun tədbirə hazırlığın təşkili barədə vacib məsələləri diqqətə çatdırıb. AMEA-nın 80 illiyi ilə əlaqədar indiyədək 52 adda monoqrafiya, biblioqrafiya və tanıtım kitablarının çap edilməsinin nəzərdə tutulduğunu, onlardan 11-nin artıq nəşr edildiyini, bir neçəsinin isə son redaktə ərəfəsində olduğunu bildirən AMEA rəhbəri nəşr işlərinin yüksək səviyyədə başa çatdırılması üçün aidiyyəti şəxslərə müvafiq tövsiyə və tapşırıqlarını verib.

Akademik İsa Həbibbəyli AMEA-nın 80 illik yubileyinin ilk dəfə olaraq beynəlxalq elmi təşkilatların rəhbərlərinə, dünyanın müxtəlif qitələrindən olan tərəfdaş Akademiyalarının, o cümlədən türk dünyası akademiyalarının prezidentlərinə dəvət məktublarının göndərildiyini bildirib, artıq onların əksəriyyətinin dəvəti qəbul etdiklərini nəzərə çatdırıb.

Yubiley münasibətilə AMEA-nın 80 illik yubiley döş nişanının hazırlandığı və ilk dəfə olaraq Əziz Səncər, Yusif Məmmədəliyev, Üzeyir Hacıbəyli, Lev Landau döş nişanlarının təsis ediləcəyini də bildirib.

Akademiyanın 80 illik yubileyi çərçivəsində türk dünyası Akademiyaları ilə əməkdaşlığın inkişaf etdirilməsinə dair ayrıca bir iclasın keçirilməsi də nəzərdə tutulub.

İclasda, həmçinin AMEA Gənc Alim və Mütəxəssislər Şurasının bazasında Akademiyanın tərkibində Gənc Akademiyanın da təsis edilməsi və yubiley tədbirində elan olunmasına dair tapşırıqlar verilib.

Bundan başqa, süni intellektdən istifadə ilə Akademiyanın 80 illik inkişaf yoluna həsr edilmiş robotların iştirakı ilə təqdimatın hazırlanması da nəzərdə tutulur.

AMEA-nın akademik-katibi akademik Arif Həşimov, Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri, Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva, AMEA Azad Həmkarlar İttifaqının sədri dosent Sənan Həsənov və başqaları çıxış edərək ayrı-ayrı sahələr üzrə müvafiq tapşırıqların icrası ilə bağlı indiyədək görülən işlər barədə ətraflı məlumat veriblər.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli tədbirlərin yüksək səviyyədə keçirilməsinin təmin edilməsi məqsədilə təşkilati işlər, plenar və bölmə iclaslarının keçirilməsi, elmi nailiyyətlər və kitab sərgilərinin təşkili, Akademiya strukturlarında müəyyən tərtibat işlərinin təşkili barədə tapşırıqlarını diqqətə çatdırıb.



# Rəyasət Heyətinin növbəti iclasında

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə akademik İsa Həbibbəyli açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Əvvəlcə AMEA-nın müxbir üzvü Aydın Kazımzadəyə 75, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadəyə isə 60 illik yubileyləri münasibətilə AMEA-nın Fəxri fərmanları təqdim olunub.

İclasda müzakirəyə çıxarılan ilk məsələ Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi ilə əlaqədar Mərkəzi Elmi Kitabxana tərəfindən hazırlanmış eresurslar.info.az veb səhifəsinin təqdimatı haqqında olub.

Akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısının "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamının icrasını təmin etmək məqsədilə AMEA-nın Tədbirlər planı hazırlanaraq təsdiq olunub. Qeyd edib ki, Təbirlər planı AMEA-nın bütün elmi müəssisə və təşkilatlarında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığının müstəqilliyimizin verdiyi geniş imkanlar işığında, elmi prinsiplər əsasında tədqiq və təbliğini əhatə edən çoxsaylı nəşr və tədbirləri əhatə edir. Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, AMEA-da həyata keçirilən genişmiqyaslı tədbirlərin davamı olaraq özünün ideya müəllifliyi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında görkəmli ədibin zəngin həyat və yaradıcılığına həsr olunmuş yeni elektron resurs hazırlanıb.

"Bəxtiyar Vahabzadə Azərbaycanın milli istiqlal şairidir və Ulu Öndər Heydər Əliyevin daim hörmət bəslədiyi ziyalılardan biri olub. Ümummilli Lider onu sovet hakimiyyətinin təqiblərindən daim qoruyub və dahi liderin Azərbaycançılıq ideologiyasının həyata keçirilməsinə Bəxtiyar Vahabzadə şərəflə xidmət edib", - deyə akademik İsa Həbibbəyli bildirib.

Sonra AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov yeni hazırlanmış elektron resursu təqdim edib. Vurğulayıb ki, müasir texnologiyaların imkanları ilə hazırlanan platforma böyük sənətkarın zəngin irsini həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə tanıtmaq məqsədi daşıyır.

Resursda şairin avtobioqrafiyası, əsərləri, kitabları və şeirləri geniş şəkildə təqdim olunur. Burada istifadəçilər Bəxtiyar Vahabzadənin müəllifi olduğu və müxtəlif illərdə nəşr edilmiş "Seçilmiş əsərləri", "Axı dünya fırlanır", "Gülüstan poeması", "Dərin qatlara işıq", "Səməd Vurğun", "Mənim dostlarım" və s. əsərləri, "Gəlin açıq danışaq..." məqalələr toplusu, "Fəryad", "Bir baharın qaranquşu" kimi 80-dən artıq kitabla tanış ola bilərlər. Həmçinin 14 adda əsərin ingilis dilində olan tərcüməsi də resursun "Şairin yaradıcılığı" bölməsində təqdim edilir.

MEK direktoru diqqətə çatdırıb ki, elektron bazada, həmçinin sənətkarın dövlət mükafatları, fəxri adları, orden və medalları barədə məlumatlar toplanıb. "Fotoyaddaş" bölməsində onun həyatının müxtəlif mərhələlərini əks etdirən fotoşəkillər, video arxivdə isə çıxışları, müsahibələri və sənədli materiallar bir arada sistemləşdirilib. Burada, həmçinin şairin şeirlərinə bəstələnmiş mahnılar da yer alıb.

Texnika elmləri doktoru Hüseyn Hüseynov qeyd olunanları əyani nümayiş etdirib və Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunmuş elektron resurs Rəyasət Heyətinin üzvləri tərəfindən yüksək qiymətləndirilib.

İclasda müzakirə edilən növbəti məsələ "Aşıq Ələsgərdən Üzeyir Hacıbəyliyə: Türk dünyasının mədəni kodları" mövzusunda beynəlxalq elmi simpoziumun keçirilməsi haqqında olub. Prezident İlham Əliyevin dahi bəstəkarın 140 illiyinin qeyd edilməsi barədə 3 fevral 2025-ci il tarixli Sərəncam imzaladığını diqqətə çatdıran akademik İsa Həbibbəyli sözügedən sənədin icrası ilə bağlı AMEA-nın Tədbirlər planının təsdiq edildiyini söyləyib. Qeyd edib ki, Tədbirlər planının icrası çərçivəsində 25-26 sentyabr tarixlərində AMEA-nın Folklor İnstitutunun, AR Mədəniyyət Nazirliyinin, Türk Mədəniyyəti və İrsi Fondunun və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə keçiriləcək simpozium cənab Prezidentin Türk dünyası ilə əlaqələrin genişləndirilməsi istiqamətində atılmış mühüm addımdır və humanitar və ictimai elmlərin inkişafına öz töhfəsini verəcəkdir.

Sonra AMEA-nın Folklor İnstitutunun direktoru filologiya elmləri doktoru, dosent Hikmət Quliyev çıxış edərək simpozium barədə məlumat verib, tədbirdə dünyanın 10-dan artıq ölkəsindən, o cümlədən türk dövlətlərindən folklorşünaslıq, sənətşünaslıq, mədəniyyətşünaslıq, musiqişünaslıq sahələri üzrə alim və mütəxəssislər tərəfindən məruzələrin təqdim ediləcəyini bildirib və hazırlıq işlərinin artıq yekunlaşdığını söyləyib.

Rəyasət Heyətinin iclasında müzakirəyə çıxarılan növbəti məsələ "AMEA-nın Döş Nişanı"nın təsis edilməsi haqqında olub. Bu məsələnin Prezident İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamının icrası istiqamətində atılan addımların davamı olduğunu deyən akademik İsa Həbibbəyli Akademiyanın tarixində ilk dəfə olaraq döş nişanının təsis edildiyini diqqətə çatdırıb. "AMEA-nın Döş nişanı"nın elmin inkişafına böyük töhfələr verən və mühüm nəticələr əldə etmiş alimlərə təqdim olunacağını bildirib və Rəyasət Heyəti tərəfindən döş nişanının Əsasnaməsi təsdiq edilib.

Bununla yanaşı, Akademiyanın 80 illik yubileyi çərçivəsində "AMEA-nın Üzeyir Hacıbəyli döş nişanı"nın, "AMEA-nın Əziz Sancar döş nişanı"nın, "AMEA-nın Yusif Məmmədəliyev döş nişanı"nın və "AMEA-nın Lev Landau döş nişanı"nın təsis olunması haqqında qərarlar qəbul olunub.

İclasda akademik Yusif Məmmədəliyevin 120 illik yubileyilə əlaqədar tədbirlər planının təsdiq edilməsi məsələsi də müzakirəyə çıxarılıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, ölkə başçısının "Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında" 5 iyul 2025-ci il tarixli Sərəncamında AMEA-ya AR Elm və Təhsil Nazirliyi ilə birlikdə alimin 120 illiyinə həsr olunmuş Tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. AMEA rəhbəri diqqətə çatdırıb ki, ötən müddət ərzində Akademiyanın elmi müəssisələrindən, həm də Elm və Təhsil Nazirliyi tərəfindən Tədbirlər planına dair təkliflər hazırlanaraq AMEA-nın Rəyasət Heyətinə təqdim edilib və bunun əsasında hər iki qurumun birgə Tədbirlər planının layihəsi hazırlanıb.

Tədbirlər planı Rəyasət Heyətinin üzvlərinə təqdim olunub və təsdiq edilib.

AMEA-nın Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi adlandırılması haqqında olub. Akademik İsa Həbibbəyli bildirib ki, bu gün ölkəmizdə süni intellekt və rəqəmsal inkişaf məsələlərinə xüsusi diqqət yetirilir və təkcə cari il ərzində dövlət başçısı tərəfindən bu istiqamətdə ardıcıl şəkildə "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında Fərman, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam və "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Fərman imzalanıb. Həmçinin ölkəmizdə bu günlərdə Süni İntellekt Akademiyası fəaliyyətə başlayıb.

Dövlətimizin atdığı sözügedən addımlara müvafiq olaraq AMEA-da da bu sahədə fəaliyyətin icra olunduğunu deyən akademik İsa Həbibbəyli 2023-cü ilin yanvar ayında yaradılmış "Elektron Akademiya" şöbəsinin ötən 2 il ərzində Akademiyada rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişlənməsi istiqamətində bir çox yeniliklərə və uğurlara imza ataraq özünü doğrultduğunu bildirib. Qeyd edib ki, yaranmış yeni texnoloji reallıq şəraitində "Elektron Akademiya" şöbəsinin adının dəyişdirilməsi və müvafiq olaraq, fəaliyyət istiqamətlərinin genişləndirilməsi zərurəti meydana çıxıb.

Qeyd olunan məsələ ilə bağlı AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev çıxış edərək "Elektron Akademiya" şöbəsinin Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi adlandırılması təklifinin ölkəmizdə dövlət başçısının rəhbərliyi altında bu sahədə aparılan işləri tam əhatə etdiyini söyləyib.

Daha sonra Rəyasət Heyətinin qərarı ilə "Elektron Akademiya" şöbəsinin adı dəyişdirilərək Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi adlandırılıb.

İclasda, həmçinin gənc alimlərin fəaliyyətini daha da sistemli şəkildə genişləndirmək məqsədilə AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının bazasında "Gənclər Akademiya"sının yaradılması qərara alınıb və əsasnaməsinin bir ay ərzində hazırlanması tapşırılıb. Bundan əlavə, AMEA-nın 80 illik yubileyinə həsr olunmuş "Humanitar və ictimai elmlər sahəsində süni intellekt və rəqəmsal texnologiyalardan istifadə imkanları" mövzusunda gənc alimlərin məqalə müsabiqəsinin keçirilməsi qərara alınıb.

Bundan əlavə, AMEA əməkdaşlarının yaradıcılıq qabiliyyəti və bədii istedadlarını üzə çıxarmaq, onların elmi fəaliyyətlə yanaşı, mədəni-mənəvi zənginliklərini nümayiş etdirmək və şəxsi yaradıcılıq potensialını geniş ictimaiyyətə təqdim etmək, elm və incəsənət arasında qarşılıqlı əlaqəni, onların bir-birini tamamlayan sahələr olduğunu göstərmək, həmçinin əməkdaşların yaradıcılıq nümunələri vasitəsilə elmi ictimaiyyətin insan yönümlü və estetik tərəflərini ön plana çəkmək məqsədilə 16 sentyabr 2025-ci il tarixində Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda AMEA əməkdaşlarının rəsm əsərlərindən ibarət sərgisinin təşkil olunması haqqında qərar qəbul olunub.

O cümlədən AMEA-nın 80 illik yubileyinə həsr olunmuş gənc alimlərin iştirakı ilə futbol yarışının keçirilməsi və AMEA-nın təsərrüfat işçilərinin (xadimələr və fəhlələr) vahid forma ilə təmin olunması haqqında qərarlar qəbul edilib.

İclasda qeyd olunan məsələlər ətrafında akademiklər Rasim Əliquliyev, Dilqəm Tağıyev, İradə Hüseynova, Arif Həşimov, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, siyasi elmlər üzrə fəlsəfə doktoru Sənan Həsənov, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

## AMEA Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının üzvü seçilib

**Azərbaycan Milli Elmlər Akademiyası beynəlxalq əlaqələrini genişləndirməyə davam edir. Belə ki, AMEA ötən 3 il ərzində tarixində ilk dəfə olaraq bir sıra nüfuzlu beynəlxalq elmi təşkilatın - Beynəlxalq Elmi Şuranın (ISC), Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının (AASSA) səsvermə hüququna malik olan üzvü seçilib.**

Beynəlxalq elmi təşkilatların işində tamhüquqlu üzv kimi iştirak etmək Akademiya əməkdaşlarının dünya elminin nailiyyətlərini, aparıcı istiqamətlərini, problemlərini daha yaxından öyrənmələrinə, beynəlxalq tədbirlərdə bərabər hüquqlara malik olan üzv kimi daha fəal iştirak etmələrinə, dünya elminə inteqrasiya proseslərinin daha intensiv şəkildə təşkilinə imkan yaradır.

Bu istiqamətdə Milli Elmlər Akademiyası daha bir uğura imza ataraq Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının (IAP) ilkin (müvəqqəti) üzvlük statusundan tam üzvlüyə keçib.

Bununla bağlı IAP-ın prezidentləri Masresha Fetene və Margaret A. Hamburg adından AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə məktub göndərilib.

Məktubda deyilir:

*"Hörmətli akademik İsa Həbibbəyli,*

*Akademiyalararası Tərəfdaşlıq Təşkilatı (İAP) adından Sizə məlumat verməkdən məmnunluq duyuruq ki, İAP Baş Assambleyası tərəfindən Akademiyanızın ilkin (müvəqqəti) üzvlük statusundan tam üzvlüyə keçidi təsdiq olunub və bu, İAP-nin veb saytında əks olunacaq. Bu nailiyyət münasibətilə ən səmimi təbriklərimizi qəbul edin. Tam üzvlüyünüz artıq qüvvədədir və İAP-nin fəaliyyətində və təşəbbüslərində davamlı və fəal iştirakınızı səbirsizliklə gözləyirik. Üzvlük məlumatlarınızın tamamlanması üçün əlavə məlumat lazım olduğu təqdirdə, İAP Katibliyinin nümayəndəsi sizinlə əlaqə saxlaya bilər.*

*Eyni zamanda, bu fürsətdən istifadə edərək, sizi 2025-ci ilin dekabr ayında Misirin Qahirə şəhərində keçiriləcək İAP Konfransı və Baş Assambleyasında iştirak etməyə dəvət edirik. Bu tədbir üzv akademiyalarla tanış olmaq, təcrübə mübadiləsi aparmaq və əməkdaşlıq imkanlarını araşdırmaq üçün yaxşı fürsət olacaq. Proqram, təşkilati məsələlər və qeydiyyatla bağlı əlavə məlumatlar bütün üzvlərlə yaxın zamanda paylaşılacaq. Bəzi ilkin məlumatlarla bu linkdən http://www.interacademies.org tanış ola bilərsiniz.*

*Tam üzv kimi Akademiyanızı aşağıdakı fəaliyyətlərə təşviq edirik:*

*- İAP-nin regional və qlobal proqramlarında və tədqiqatlarında iştirak etmək;*

*- İAP-nin işçi qrupları və komitələri üçün ekspertlərin namizədliyini təqdim etmək;*

*- İAP-nin bəyanatlarına və məsləhətləşmələrinə töhfə vermək;*

*- İAP-nin kommunikasiya və potensialın artırılması təşəbbüslərinə qoşulmaq;*

*- Ümumi prioritetlərimizin müəyyənləşdirilməsinə yardım üçün İAP-nin sorğularına və fikir bildirmək üçün çağırışlarına cavab vermək.*

*Ümid edirik ki, Akademiyanız İAP-nin gələcəyinin formalaşmasında fəal iştirak edəcək və elmin, səhiyyənin və siyasətin qlobal səviyyədə təşviqinə fənlərarası və akademiyalararası əməkdaşlıq yolu ilə töhfə verəcək. Bir daha sizi bu mühüm addım münasibətilə təbrik edirik və İAP-nin tamhüquqlu üzvü kimi salamlayırıq.*

*Səmimi hörmətlə,*
*Margaret (Peggy) Hamburg*
*Masresha Fetene"*

**Qeyd edək ki, mərkəzi Yunanıstanın paytaxtı Afinada yerləşən Beynəlxalq Platon Akademiyasından da üzvlüyə razılıqla bağlı AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə məktub göndərilib.**

ELM

# Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsinin (ICPC) 49-cu dünya finalının açılış mərasimi

**Mərkəzi Bankın tərəfdaşlığı, ICPC Fondunun təşkilatçılığı, ADA Universitetinin ev sahibliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə "ICPC Azərbaycan" icmasının birgə əməkdaşlığı və "PAŞA Holdinq"in dəstəyi ilə Bakıda ilk dəfə keçirilən Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsinin (ICPC) 49-cu dünya finalının açılış mərasimi olub.**

Heydər Əliyev Mərkəzində təşkil edilən tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli də iştirak edib.

ICPC Fondunun prezidenti Vilyam B.Pouçer və ICPC 49-cu dünya finalının direktoru Fuad Hacıyev qonaqları salamlayaraq, müsabiqə iştirakçılarına uğurlar arzulayıblar.

Tədbirdə çıxış edən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev və rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov ICPC 49-cu dünya finalının ölkəmizdə keçirilməsinin əhəmiyyətindən və yaradacağı imkanlardan danışıblar.

Mərkəzi Bankın sədri Taleh Kazımov dünya finalının Bakıda keçirilməsinin ölkəmizin texnoloji tərəqqisinin bariz göstəricisi və beynəlxalq əməkdaşlığa açıqlığının təzahürü olduğunu vurğulayıb.





Daha sonra tədbirdə ICPC tərəfindən tərəfdaşlara və ICPC icmasının üzvlərinə mükafatlar təqdim olunub. Tədbirin keçirilməsində göstərdiyi dəstəyə görə Mərkəzi Bank və sədri Taleh Kazımov "Beynəlxalq töhfə" mükafatı ilə təltif edilib. Mərkəzi Bankın sədr müavini Vüsal Xəlilova ICPC ilə sıx əməkdaşlığa görə mükafat təqdim olunub.

Qeyd edək ki, Azərbaycan 2004-cü ildən ICPC-nin regional turlarında iştirak edir. Bu günə qədər ölkəmiz finalda iştirak hüququ qazanmış yalnız bir komanda ilə təmsil olunurdu. Bu il isə ilk dəfə olaraq Azərbaycanı dünya finalında ADA Universiteti və Bakı Ali Neft Məktəbinin iki komandası təmsil edir.

Müsabiqəyə dünyanın müxtəlif ölkələrindən aparıcı universitetlərin ən güclü komandaları qatılıb. Ümumilikdə ICPC-nin rəsmi mərhələlərində hər il 110-dan çox ölkədən 3 min 500-ə yaxın universiteti təmsil edən 50 mindən çox tələbə-proqramçı mübarizə aparır. 49-cu dünya finalında isə 70 ölkədən 140 ali təhsil müəssisəsini təmsil edən komandalar (hər komandada 3 tələbə olmaqla) iştirak edir.

Bildirək ki, "OpenAI", "Google", "Huawei" kimi aparıcı texnoloji şirkətlərin də nümayəndələri dünya finalında iştirakla əlaqədar Bakıda bir araya toplaşıblar.

ICPC proqramlaşdırma sahəsinin inkişafı, gənclərin bu sahəyə marağının artırılması və qlobal miqyasda tanınması istiqamətində mühüm əhəmiyyət daşıyır.

## Çin Sosial Elmlər Akademiyasının nümayəndə heyəti ilə görüş



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Çin Sosial Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya İnstitutunun nümayəndə heyəti ilə görüşüb.**

Rəyasət Heyətində keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli son illərdə Azərbaycanla Çin arasında siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələri əhatə edən əlaqələrin gücləndiyini və yeni müstəviyə yüksəldiyini söyləyib. Qeyd edib ki, bu gün ölkələrimizin münasibətləri etibarlı tərəfdaşlığa, yüksək etimada söykənir və ölkələrimiz arasında viza rejiminin ləğvi bunun bariz nümunəsidir. Bu günlərdə Prezident İlham Əliyevin Çinə səfərinin strateji əməkdaşlıq baxımından böyük əhəmiyyət kəsb etdiyini deyən AMEA rəhbəri dövlətimizin başçısının Çin Xalq Respublikasının Sədri Si Cinpinlə keçirdiyi yüksək səviyyəli görüş, "ŞƏT plyus" formatında görüşdə iştirakı və geniş nitqinin Azərbaycan-Çin münasibətlərinin hərtərəfli inkişafına yeni nəfəs verəcəyini vurğulayıb.

Dövlət başçılarımızın açdığı geniş yolda Azərbaycanla Çin arasında elmi əlaqələrin də inkişaf etdiyini deyən akademik İsa Həbibbəyli AMEA-nın Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Pekin Xarici Dillər Universiteti, Hebey Pedaqoji Universiteti və digər akademik qurumlarla sıx əməkdaşlıq etdiyini, "Xəzərdən Çin səddinədək" mövzusunda birgə elmi layihənin icra edildiyini diqqətə çatdırıb. Bundan əlavə, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzinin fəaliyyət göstərdiyini, Akademiyanın Şərqşünaslıq, Fəlsəfə və Sosiologiya və digər institutlarında Çinə dair geniş tədqiqatların aparıldığını söyləyib.

Çin Sosial Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya İnstitutunun direktor müavini professor Çzin Çje çıxışında səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkələrimiz arasında yüksək əlaqələrin genişlənməsinin elm xadimləri üçün də geniş imkanlar açdığını vurğulayıb. AMEA-da Çinə dair aparılan tədqiqatlardan məmnunluğunu dilə gətirən professor Çzin Çje birgə əməkdaşlığın genişləndirilməsi barədə təkliflərini səsləndirib.

Görüşdə, həmçinin institutun Mərkəzi Asiya və Qafqaz tədqiqatları şöbəsinin müdiri Ph.D. Zhang Ning, elmi əməkdaşlar Ph.D. Jiang Jing, Lyu Çang və Sun Danmen çıxış edərək apardıqları tədqiqatlar barədə ətraflı məlumat veriblər.

Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

Görüşdə AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva və AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov da iştirak ediblər.

Çinli alimlər AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzi ilə də tanış olublar.

## Vyetnamlı alimlərlə elmi-ədəbi əməkdaşlıq perspektivləri müzakirə edilib



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycanda səfərdə olan vyetnamlı ədəbiyyatşünas alimlərlə görüşüb.**

AMEA Rəyasət Heyətində keçirilən görüşdə Azərbaycanla Vyetnam arasında bütün sahələrdə əməkdaşlığın genişləndirildiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli elm sahəsində də əlaqələrinin yaradılmasının əhəmiyyətinə toxunub. Akademiyanın tarixi, fəaliyyət istiqamətləri barədə məlumat verən AMEA rəhbəri keçmiş sovet dövründə digər respublikalarda olduğu kimi Azərbaycanda da yalnız Avropa və Amerika ədəbiyyatının öyrənildiyini, Asiya ölkələri ilə bağlı tədqiqatlara önəm verilmədiyini deyib. Müstəqillik dövründə isə ilk dəfə olaraq 2016-cı ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Asiya xalqları ədəbiyyatı" şöbəsinin yaradıldığını, şöbədə digər Asiya xalqları ilə yanaşı Vyetnam ədəbiyyatına da dair tədqiqatlara başlanıldığını diqqətə çatdırıb. Bildirib ki, şöbənin əməkdaşı Sevda Məmmədova tərəfindən Vyetnam ədəbiyyatına dair fəlsəfə doktorluğu dissertasiyası müdafiə edilib ki, bu da müstəqillik dövründə bu mövzuda yazılmış ilk tədqiqat əsəridir.

Vyetnamın Hanoy Universitetinin professoru Nguyen Van Çien çıxış edərək keçən ilin dekabr ayında AMEA-da keçirilmiş "Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar" mövzusunda beynəlxalq elmi konfransın nəticələrinin əhəmiyyətli olduğunu diqqətə çatdırıb, tədbir barədə Vyetnamın rəsmi qəzetində geniş məqalə ilə çıxış etdiyini bildirib. Ölkələrimiz arasında elm sahəsində də əlaqələrin qurulmasının vacibliyindən danışan vyetnamlı professor meydana çıxacaq birgə elmi layihələrin uğurlu başlanğıc olduğunu deyib. Vyetnamın Hanoy Universitetində türkologiya üzrə elmi mərkəzin yaradılması ilə bağlı layihə üzrə işlənildiyini vurğulayan qonaq qurumun elmi-ədəbi əməkdaşlığa böyük töhfə verəcəyinə əminliyini bildirib.

Vyetnamlı araşdırmaçı, yazıçı, jurnalist və tərcüməçi Di Li isə çıxışında elmi-ədəbi əlaqələrin inkişaf etdirilməsində AMEA ilə əməkdaşlığın perspektivlərindən danışıb. Görüşün birgə elmi layihələrin meydana çıxmasına şərait yaradacağını vurğulayıb.

Görüşdə Hanoy Universitetində Azərbaycanşünaslıq və Türkologiya Mərkəzinin yaradılması, AMEA ilə Hanoy Universiteti arasında əməkdaşlıq memorandumunun imzalanması, qarşılıqlı kitab tərcüməsi və nəşri, digər elmi layihələrə dair fikir mübadiləsi aparılıb, müvafiq razılıq əldə olunub.

Sonra qarşılıqlı kitab hədiyyələri təqdim edilib.

Sonda qonaqlar AMEA Rəyasət Heyətinin tarixi binası ilə tanış olublar.

Görüşdə Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə və Vyetnam ədəbiyyatı üzrə tədqiqatçılar da iştirak ediblər.

# Təbii resursların tibbdə istifadəsi ölkəmizin prioritetidir

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında AR Elm və Təhsil Nazirliyinin akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun və Türkiyənin İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə hibrid formatda "8-ci Beynəlxalq Tibb və Sağlamlıq Elmləri" mövzusunda beynəlxalq elmi-praktik konqres keçirilib.**

Beynəlxalq tədbir Vətən müharibəsində qələbənin 5-ci ildönümünə həsr olunub və konqresin elmi mövzusu təbii faktorların tibbi praktikada istifadəsinə aiddir.

Ümumilikdə konqresdə 20 ölkədən - Türkiyə, Pakistan, Qazaxıstan, Albaniya, Anqola, Braziliya, Bolqarıstan, Çin, Çexiya, Hindistan, İran, Monteneqro, Mərakeş, Nigeriya, Polşa, Portuqaliya, Ruminiya, Serbiya və s. 200-dən çox nümayəndə iştirak edib.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq iştirakçıları salamlayıb və qeyd edib ki, konqres ölkəmiz üçün əlamətdar hadisəyə - Vətən müharibəsində qələbənin 5-ci ildönümünə həsr olunub. Akademik İsa Həbibbəyli bildirib ki, beynəlxalq konqres Azərbaycanda keçirilmiş COP29 kimi dünya nüfuzlu konfrans və "Yaşıl dünya naminə həmrəylik ili" kimi tədbirlərin davamı olaraq ölkəmizdə iqlimə, yaşıl dünyaya, tibbə, sağlamlığa verilən dəyərin elmi təzahürüdür. AMEA rəhbəri diqqətə çatdırıb ki, belə konqreslər yaşıl iqtisadiyyat, yaşıl iqtisadi zonanın daha da genişlənməsinə, sağlamlığımızın rifahına xidmət edir. Həmçinin vurğulayıb ki, müalicəvi Naftalan nefti, 1.500 növ müalicəvi bitki resursları, mineral suları, Duzdağ kimi zəngin təbii resurslara malik olan Azərbaycan üçün bu faktorların tibbdə istifadəsinin elmi əsaslarının işlənməsi ölkəmiz üçün prioritet təşkil edir.



Daha sonra konqresin əsas təşkilatçılarından olan AR ETN Abdulla Qarayev adına Fiziologiya İnstitutunun direktoru professor Ulduz Həşimova, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin nümayəndəsi İltifat İbrahimov, İKSAD-ın Azərbaycan üzrə baş direktoru Dr. Əlvan Cəfərov, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, Türkiyənin İnönü Universitetinin Əczaçılıq fakültəsinin professor Dr. İsmet Yılmaz, Çin Xalq Respublikasından "Lingren Group"un sədri Dr. Li Zhang, onlayn formatda Pekin Universitetindən Dr. Liu Tingfang çıxış edərək konqresin əhəmiyyətindən danışıblar.

Beynəlxalq elmi-praktik konqres 20 bölmə iclasında öz işini davam etdirib. Xərçəngin erkən diaqnostikası, biotibbi materialların inkişafı, neyrodegenerativ xəstəliklər, ictimai səhiyyə modelləri və süni intellektin tibb sahəsinə tətbiqinə dair geniş məruzələr aparılıb.

# Ağsuda professor Qafar Cəbiyevin 75 illik yubileyi qeyd olunub

**”Orta Əsr Ağsu Şəhəri” Dövlət Tarix-Mədəniyyət Qoruğunda AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri tarix elmləri doktoru, professor Qafar Cəbiyevin anadan olmasının 75 illik yubileyinə həsr edilmiş elmi-praktiki konfrans keçirilib.**



Tədbir AMEA-nın Rəyasət Heyəti, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, Ağsu Rayon İcra Hakimiyyəti və ”Orta Əsr Ağsu Şəhəri” Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə keçirilib.

Əvvəlcə konfrans iştirakçıları rayonun mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

Konfransın açılış mərasimində çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, Tarix-Mədəniyyət Qoruğunda ilk dəfədir ki, alimin yubileyi keçirilir. Tədbirin ölkə Prezidenti tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına elmin töhfəsi olduğunu vurğulayan AMEA rəhbəri son illərdə Akademiyada aparılan yeniləşmə prosesləri və islahatlardan, o cümlədən arxeologiya sahəsi üzrə əldə olunmuş nailiyyətlərdən danışıb.

Akademik İsa Həbibbəyli bildirib ki, 75 illik yubileyi qeyd edilən professor Qafar Cəbiyev ömrünün böyük bir hissəsini Azərbaycan tarixinin, xüsusilə də orta əsrlər arxeologiyasının araşdırılmasına həsr edib. Qeyd edib ki, Qafar Cəbiyevin araşdırmaları nəticəsində orta əsr yaşayış məskənləri haqqında bir çox yeni elmi faktlar aşkarlanıb, arxeologiya elmimiz zənginləşdirilib.

AMEA rəhbəri vurğulayıb ki, alimin ən böyük xidmətlərindən biri Girdiman vilayətinin tarixi ilə bağlı apardığı tədqiqatlardır. Bu mövzu üzərində illərlə araşdırmalar aparan Qafar Cəbiyev qədim Girdiman dövlətinin siyasi, iqtisadi və mədəni həyatını geniş şəkildə işıqlandırıb, monoqrafiyalar və elmi məqalələrlə mövzunu tarixşünaslığa qazandırıb. Bu tədqiqatlar sayəsində Azərbaycanın erkən orta əsrlər tarixi haqqında daha dolğun təsəvvür formalaşıb.

Ağsu rayonu ərazisində, eləcə də Qəbələ, Şamaxı, İsmayıllı rayonlarında apardığı mühüm tədqiqatları xüsusi qeyd edən akademik İsa Həbibbəyli söyləyib ki, Qafar Cəbiyev həm də Basqal arxeoloji ekspedisiyasının rəhbəri kimi ölkəmizin maddi-mədəni irsinin qorunmasına mühüm töhfələr verib. Basqalda aparılan qazıntılar nəticəsində əldə edilən tapıntılar Azərbaycan arxeologiyasına yeni elmi materiallar qazandırıb, həmçinin milli irsimizin dünya ictimaiyyətinə təqdimatına imkan yaradıb.

AMEA prezidenti əlavə edib ki, Qafar Cəbiyevin əsərləri və elmi fəaliyyəti təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də tanınır. Onun məqalələri müxtəlif ölkələrin elmi nəşrlərində dərc olunub, konfranslarda təqdim edilib. Alim dəfələrlə beynəlxalq tədbirlərdə çıxış edərək Azərbaycanın qədim tarixini və arxeoloji tapıntılarını dünya elmi müstəvisində təqdim edib.

Sonda AMEA rəhbəri Qafar Cəbiyevin Azərbaycan elminə verdiyi xidmətlərin gələcək nəsillər üçün etibarlı örnək olduğunu vurğulayıb və onu 75 illik yubileyi münasibətilə təbrik edib, ona AMEA-nın Fəxri fərmanını təqdim edib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov respublikada xüsusi hörmət qazanmış tanınmış alim, jurnalist, ictimai xadim Qafar Cəbiyevi 75 illik yubileyi münasibətilə təbrik edib və çıxışında bildirib ki, Qafar Cəbiyev həm məhsuldar tarixçi alim, həm də istedadlı qələm sahibi kimi Azərbaycan elminə və mətbuatına böyük töhfələr vermişdir.

Milli Məclisin deputatı Elçin Mirzəbəyli, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi professor Səbinə Hacıyeva, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Heydərova, AMEA Arxeologiya və Antropolgiya İnstitutunun direktoru dosent Fərhad Quliyev, institutun şöbə müdiri professor Abbas Seyidov, professor Şikar Qasımov, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli çıxış edərək yubilyara öz təbriklərini çatdırıblar. Professor Qafar Cəbiyevə Fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.

Yubiley mərasimində çıxış edən professor Qafar Cəbiyev ona ünvanlanmış təbriklərə, xoş sözlərə görə minnətdarlığını bildirib və Azərbaycan tarixindən, keçdiyi həyat yolundan maraq kəsb edən qısa məlumat verib.

Sonda professor Qafar Cəbiyevin həyat və elmi fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə AMEA-nın akademik-katibi akademik Arif Həşimov, AMEA Arxeologiya və Antropologiya İnstitutunun kollektivi, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.



# AMEA-nın prezidenti Qəbələdə arxeoloqlarla müşavirə keçirib

**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda burada fəaliyyət göstərən arxeoloji ekspedisiyanın üzvlərinin və əlaqədar qurumların iştirakı ilə müşavirə keçirilib.**

Toplantını giriş sözü ilə açan akademik İsa Həbibbəyli Qədim Qəbələ şəhərinin UNESCO-nun Dünya İrsinin İlkin siyahısına daxil edilməsini mühüm əhəmiyyətə malik hadisə olduğunu bildirib. AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu tərəfindən Qəbələdə aparılan arxeoloji qazıntı işlərinin böyük tarixi əhəmiyyətinə toxunan akademik İsa Həbibbəyli burada yaradılan müasir tipli infrastruktura və iş şəraitinə görə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri, biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Heydərovanın və Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun əməkdaşlarının göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun direktoru Zahir Kərimov qoruq haqqında ətraflı məlumat verib. Qədim Qəbələ şəhərinin Qafqaz Albaniyasının ilk paytaxtı olduğunu bildirən qoruq rəhbəri nəzərə çatdırıb ki, İlkin siyahı - UNESCO-nun Dünya İrs siyahısına daxilolmanın birinci mərhələsidir və sonrakı prosedurların həyata keçirilməsində arxeoloqlarla birlikdə üzərimizə düşən vəzifələri lazımi səviyyədə həyata keçirəcəyik.

Tədbirdə Milli Məclisin deputatı Elçin Mirzəbəyli, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri, biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Heydərova, AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev, həmin institutun İslam arxeologiyası şöbəsinin müdiri, professor Qafar Cəbiyev və başqaları çıxış edərək Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda AMEA tərəfindən aparılan arxeoloji tədqiqatlar və qarşıda duran vəzifələr haqqında danışıblar.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və müşavirə iştirakçıları qoruq ərazisindəki abidələrlə, aparılmış qazıntı işlərinin mövcud vəziyyəti ilə tanış olublar.

Uzun illər bu ərazidə arxeoloji qazıntılar aparmış AMEA-nın müxbir üzvü İlyas Babayevin xidmətləri ehtiramla yad edilib.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşı, Qəbələ-Cənubi Koreya birgə arxeoloji ekspedisiyasının rəhbəri tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminli arxeoloji abidələrlə əlaqədar və qazıntıların gedişi haqqında geniş məlumat verib.

Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev Qəbələdə qazıntı işlərində Cənubi Koreya arxeoloji ekspedisiyası ilə beynəlxalq əməkdaşlığın nəticələrini diqqətə çatdırıb.

Müzakirələr zamanı növbəti ildən Qəbələdə tədqiqat prosesində arxeoloqlarla yanaşı tarixçi və etnoqrafların, dilçi və folklorçu alimlərin də tədqiqatlara cəlb edilməsinin zəruriliyi haqqında təkliflər səsləndirilib və icra üçün qəbul olunub.

Tədbirdə AMEA-nın akademik-katibi, akademik Arif Həşimov, Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun təmsilçiləri, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının əməkdaşları və arxeoloq alimlər də iştirak ediblər.

# "Tarixi yerlər və abidələr"- V Beynəlxalq Simpozium

**Görkəmli alim, AMEA-nın müxbir üzvü Vəli Əliyevin xatirəsinə həsr olunan ”Tarixi yerlər və abidələr” mövzusunda V Beynəlxalq Bakı - Bayırşəhər Simpoziumu keçirilib.**




Simpozium AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu və ”Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən təşkil olunub.

AMEA-nın Əsas binasında baş tutan açılış mərasimində Türkiyə, İtaliya və Gürcüstanın müvafiq sahə üzrə aparıcı alim və mütəxəssisləri, tanınmış arxeoloqlar, Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları, KİV nümsendəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Azərbaycanın qədim şəhərsalma mədəniyyəti, arxeoloji abidələri, eləcə də tarixi irsin qorunması ilə bağlı məsələlərin müzakirəsinə həsr olunan simpoziumun elmi əhəmiyyətini qeyd edib. Bildirib ki, beynəlxalq tədbir elm adamlarını bir araya gətirərək Azərbaycanın mədəni irsinin qorunması sahəsində fikir mübadiləsi aparmaq üçün mühüm platformadır. Həmçinin elmi əməkdaşlığın daha da genişlənməsi üçün yeni imkanlar açır.

Akademik İsa Həbibbəyli simpoziumun Azərbaycan arxeologiyasında elmi məktəb yaratmış alimlərdən olan AMEA-nın müxbir üzvü Vəli Əliyevin xatirəsinə həsr olunmasının xüsusi önəm daşıdığını vurğulayıb. O, milli arxeologiyamızı çoxillik səmərəli fəaliyyəti ilə zənginləşdirmiş Vəli Əliyevin elmi fəaliyyətindən, ölkəmizdə tarix və arxeologiya elminin inkişafındakı xidmətlərindən danışıb.

AMEA prezidenti Qarabağ, Naxçıvan, Beşbarmaq dağı, Naftalan şəhəri, Goranboy rayonu və Astara rayonunun Alaşa kəndi ərazisində yerləşən Əlişa qalasında Arxeologiya və Antropologiya İnstitutu tərəfindən aparılan arxeoloji qazıntı işləri ilə yerində tanış olduğunu, tədqiqat işlərinin gedişi, aşkarlanmış memarlıq qalıqları və arxeoloji materiallara yaxından baxış keçirdiyini bildirib.

Akademik İsa Həbibbəyli bu yaxınlarda Bakının ”Bayırşəhər” adlanan tarixi hissəsində azərbaycanlıların yaşadığı məhəllədə XIX əsrdə tikilmiş Zərgərpalan hamamı kimi tanınan tarixi abidənin konservasiya işlərindən sonra açılışının olduğunu söyləyib. Zərgərpalan hamamının tarixi-mədəni sərvətimizin bir parçası olduğunu deyən alim Bakının mərkəzində bu cür arxeoloji mədəniyyət abidəsinin yenidən həyata qaytarılmasının tariximizə sahib çıxmaq baxımından olduqca önəmli olduğunu qeyd edib. Vurğulayıb ki, ölkəmizin tarixini, memarlığını, mədəniyyətini əks etdirən arxeoloji nümunələrin bərpa olunaraq həyata qaytarılması onların yeni nəsillərə çatdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Daha sonra ”Miras” İctimai Birliyinin sədri tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli AMEA-nın müxbir üzvü Vəli Əliyevin həyat və fəaliyyətinə dair geniş məruzə ilə çıxış edib.

Daha sonra tədbir öz işini bölmə iclasları ilə davam etdirib.

Simpoziumun bölmə iclasları Bakının Bayırşəhər ərazisində yerləşən tarixi Zərgərpalan Hamamında keçirilib.

İclaslarda ”Azərbaycan arxeologiyası və Vəli Əliyevin tədqiqatlarında Qarabağ mövzusu”, ”Təbrizdə yaşayan daş yaddaşı”, ”Kərkükdə tarixi Osmanlı abidələri”, ”Azərbaycan epiqrafik abidələri arasında hamamların rolu”, ”Göl Yeri yaşayış yerinin dəfn adətləri” və digər mövzularda məruzələr dinlənilib.

Qeyd edək ki, beynəlxalq tədbir iki gün davam edib.

# Vikipediyanın Azərbaycan dili bölməsində keyfiyyət 54-ə çatdı

**Vikipediya platformasının Azərbaycan dili bölməsində əhəmiyyətli şəkildə dəyişikliklər müşahidə olunmaqdadır. Artıq məqalələrin sayı 207 mini keçib.**

Bununla yanaşı, Azərbaycan ”Vikipediya” İcmasının səmərəli fəaliyyəti nəticəsində Vikipediyada dərinlik (keyfiyyət) göstəricisi 53-dən 54-ə yüksəlib.

Bu onu göstərir ki, Vikipediyanın Azərbaycan dili bölməsi hər ötən gün zənginləşir və bu da ana dilimizdə məlumatların əlçatanlığını təmin edir. İldə milyonlarla insan Azərbaycan ”vikipediya”sına müraciət edir və istədiyi məlumatları əldə etməyə çalışır.

Qeyd edək ki, bir neçə ildir AMEA institutlarının əməkdaşları üçün könüllü olaraq Vikipediya təlimləri keçirilir. Təlimlərin



| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 51 | Minangkabau | Minangkabau | min | 228,491 | 473,441 | 3,185,058 | 5 | 21,614 | 51 | 180 | 7 |
| 52 | Croatian | hrvatski | hr | 227,460 | 488,438 | 7,267,216 | 15 | 332,882 | 437 | 21,080 | 19 |
| 53 | Galician | galego | gl | 226,348 | 554,741 | 7,162,383 | 6 | 157,376 | 255 | 30 | 27 |
| 54 | Lithuanian | lietuvių | lt | 223,502 | 558,756 | 7,618,142 | 9 | 200,912 | 310 | 28,766 | 30 |
| 55 | Azerbaijani | azərbaycanca | az | 207,077 | 625,566 | 8,282,562 | 12 | 316,923 | 881 | 14,860 | 54 |
| 56 | Slovenian | slovenščina | sl | 194,853 | 494,929 | 6,491,180 | 22 | 244,574 | 283 | 8,741 | 31 |
| 57 | Georgian | ქართული | ka | 184,914 | 512,184 | 4,849,624 | 6 | 171,383 | 226 | 15,809 | 29 |
| 58 | Ladin | Ladin | lld | 180,801 | 187,798 | 242,664 | 3 | 10,716 | 34 | 4 | 0 |
| 59 | Tamil | தமிழ் | ta | 176,278 | 602,217 | 4,326,120 | 32 | 246,142 | 240 | 9,436 | 41 |
| 60 | Thai | ไทย | th | 175,950 | 1,155,344 | 12,492,089 | 19 | 507,280 | 1,192 | 5,951 | 335 |

keçirilməsində məqsəd AMEA-nın elmi müəssisə və təşkilatlarında könüllü Vikipediya qruplarının formalaşdırılmasıdır. Son bir ildə isə AMEA Rəyasət Heyəti aparatının ”Elektron Akademiya” şöbəsinin təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada Vikipediya təlimləri təşkil edilir.

# QDİƏT Assambleyasının baş katibi akademik Asəf Hacıyevlə görüş



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT) baş katibi akademik Asəf Hacıyevlə görüşüb.**

AMEA-nın Rəyasət Heyətində baş tutan görüşdə çıxış edən akademik İsa Həbibbəyli Milli Elmlər Akademiyasının 80 illiyi çərçivəsində görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə məlumat verib. Qeyd edib ki, dövlət başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamından irəli gələrək həm ölkəmizdə, həm də Türk dünyasının elmlər akademiyaları və akademik elmi təşkilatlarında AMEA-nın yubileyi təntənəli şəkildə qeyd olunur.

Bu tədbirlər çərçivəsində cari ilin iyun ayında İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası tərəfindən təşkil edilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Elmlər Akademiyaları prezidentlərinin İkinci toplantısında AMEA-nın 80 illik yubileyinin yüksək səviyyədə qeyd olunduğunu deyən akademik İsa Həbibbəyli tədbirin təşkilinə görə akademik Asəf Hacıyevə təşəkkürünü bildirib.

AMEA rəhbəri, həmçinin noyabr ayında planlaşdırılan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş təntənəli tədbir, eləcə də Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlıq məsələləri barədə danışıb.

Öz növbəsində çıxış edən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi akademik Asəf Hacıyev qeyd edib ki, Milli Elmlər Akademiyası mövcud olduğu 80 il ərzində ölkəmizin ictimai, iqtisadi, elmi, ədəbi, mədəni həyatında mühüm rol oynayıb və Azərbaycan alimləri elmi kəşfləri, apardıqları tədqiqatlarla dünya şöhrəti qazanıblar.

Dövlət başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamının AMEA-nın 80 illik şərəfli tarixinə, Azərbaycan elminə, aliminə və ziyalısına verilən dəyərin ifadəsi olduğunu deyən akademik Asəf Hacıyev bu çərçivədə keçirilən tədbirləri yüksək dəyərləndirib.

Görüşdə, həmçinin bir sıra məsələlərlə bağlı fikir mübadiləsi və müzakirələr aparılıb, xatirə şəkilləri çəkdirilib.

# Riyaziyyat və mexanika elmi tərəqqinin yol xəritəsini müəyyənləşdirir

**Sentyabrın 3-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə "Riyaziyyat və mexanikanın müasir problemləri" adlı XII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.**




Konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Özbəkistan Elmlər Akademiyasının V.İ. Romankovski adına Riyaziyyat İnstitutu və Türkiyə Cümhuriyyəti Yıldız Texniki Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.

Tədbiri giriş nitqi ilə Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov açaraq geniş məruzə ilə çıxış edib. O bildirib ki, bu kimi beynəlxalq tədbirlər elm adamları arasında elmi əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə və ideya mübadiləsinin təşviqi baxımından mühüm əhəmiyyətə malikdir. Fundamental və tətbiqi elmlərin kəsişməsində dayanan riyaziyyat və mexanika bu gün elmi tərəqqinin aparıcı istiqamətlərindəndir.

Misir Mərdanov çıxışında Azərbaycanda riyaziyyat elminin tarixi və bu sahənin müasir mərhələlərini də ətraflı təhlil edib.

Konfransda Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Rasim Əliquliyev tədbir iştirakçılarını AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin adından salamlayaraq, onlara elmi fəaliyyətlərində və tədbirin işində uğurlar arzulayıb.

Akademik Rasim Əliquliyev riyaziyyat fənninin tədrisi və elmi tədqiqatlarda tətbiqi ilə bağlı bir sıra vacib məsələlərə toxunub. Alim qeyd edib ki, müasir dövrdə riyaziyyat yalnız fundamental elm sahəsi kimi deyil, həm də süni intellekt, informasiya texnologiyaları, iqtisadiyyat, mühəndislik və digər sahələrdə əsas metodoloji baza kimi çıxış edir. Bu baxımdan, riyaziyyatın daha geniş auditoriyaya, xüsusilə də müxtəlif sahələr üzrə fəaliyyət göstərən mütəxəssislərə düzgün və sistemli şəkildə öyrədilməsi mühüm zərurətə çevrilib. Azərbaycan elminin dünya elminə inteqrasiyasında riyazi bilik və təfəkkürün inkişafının vacibliyini vurğulayaraq elmi tədqiqatlarda riyazi modelləşdirmədən daha geniş istifadə edilməsinin zəruriliyini diqqətə çatdırıb.

Konfrans çərçivəsində Qazaxıstan Milli Elmlər Akademiyasının akademiki Maksad Kalimoldayev çıxış edərək riyaziyyat elminin müasir çağırışları və elmi innovasiyaların əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Akademik qeyd edib ki, ortaq tarixi və mədəni köklərə əsaslanan bu münasibətlər iki ölkənin elmi institutları arasında birgə layihələrin həyata keçirilməsi üçün əlverişli zəmin yaradır. Çıxışı zamanı o, gənc alimlərin qarşılıqlı mübadiləsinin və beynəlxalq elmi forumlarda fəal iştirakının vacibliyini də vurğulayıb.

Tədbirin sonunda konfrans öz işini plenar sessiyalar və tematik seksiyalarla davam etdirib.

Qeyd edək ki, üç gün davam edən konfransda 10-dan artıq ölkədən tanınmış alimlərin iştirakı ilə məruzələr təqdim olunub, həmçinin gənc tədqiqatçılar üçün elmi seminarlar və panel müzakirələri keçirilib.

Konfrans riyaziyyat və mexanika elmlərinin qarşıdakı illərdəki inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm elmi platforma kimi dəyərləndirilib.

# Görkəmli kimyaçı alimin yubileyi





**AR Elm və Təhsil Nazirliyinin Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda görkəmli kimyaçı, akademik Həbibulla Şahtaxtinskinin anadan olmasının 125 illiyinə həsr olunmuş Elmi şuranın genişləndirilmiş iclası keçirilib.**

Tədbirdə elmi şuranın üzvləri, mərhum alimin yaxınları və yetişdirdiyi tələbələri iştirak edib.

Öncə Həbibulla Şahtaxtinskinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan institutun baş direktoru, akademik Dilqəm Tağıyev bildirib ki, H.B.Şahtaxtinskinin Azərbaycanın mineral sərvətlərinin emalına aid tədqiqatları əsas mineral xammalların - alunitin, Filizçay polimetal filizinin, Daşkəsən dəmir filizinin, titanlı dəniz qumunun, boratların, daş duzunun, dolomitlərin emal problemlərini, nadir, səpələnmiş, qara və əlvan metalların kimyası və texnologiyası kimi çox böyük sahələri əhatə edir. Dünyada ilk dəfə Gəncə-Gil torpaq zavodu öz fəaliyyətinə 1965-ci ildə alunitin emalı ilə başlamışdır. Mövcud texnologiyanın təkmilləşdirilməsi, emalın göstəricilərinin yaxşılaşdırılması, istehsal prosesinin müxəlif pillələrində itirilən qiymətli komponentlərin (vanadium və qalliumun) alınması, qaz tullantılarının təmizlənməsi və istifadəsi üzrə tədqiqat işlərinin aparılması H.B.Şahtaxtinskinin rəhbərliyi ilə onun tələbələri tərəfindən davam etdirilmişdir. Yandırma və reduksiya zamanı alunitin narın fraksiyalarının toz halında itkisini yox etmək üçün tədqiqatçı üyüdülmüş alunitin əvvəlcədən dənəvərləşdirilməsi və prosesi fırlanan sobada aparmağı təklif edir, bu isə itkinin 20%-ni aradan qaldırmağa imkan verir. Həbibulla Şahtaxtinskinin təklif etdiyi digər mühüm üsul alunitin reduksiyası üçün solyar yağı əvəzinə konversiya olunmuş təbii qazdan istifadə edilməsidir. Səmərəli reduksiyaedicinin hesabına materialın reduksiya dərəcəsi artır, bu da öz növbəsində təmiz alüminium oksid və sulfat turşusunun alınmasına səbəb olur. Akademik H.Şahtaxtinskinin öz biliyini və gücünü sərf etdiyi mühüm və böyük problemlərdən biri də əlvan metallurgiya sənayesində alınan və tullantı qazlarının tərkibinə daxil olan kükürd qazlarından elementar kükürdün alınmasıdır. İlk dəfə olaraq, müxtəlif katalizatorlardan istifadə etməklə kükürd 4-oksidin aşağı temperaturda konversiya qazı ilə reduksiyasının elmi əsasları işlənib hazırlanmışdır.

H.Şahtaxtinskinin elmi işlərinin nəticələri 7 monoqrafiya və dərsliklərdə, 400 elmi məqalə, müəllif şəhadətnamələri və elmi hesabatlarda ümumiləşdirilmişdir. Onun rəhbərliyi ilə 40-a yaxın elmlər namizədi və doktoru müdafiə etmişdir.

Sonra "Əlvan metal tərkibli mineral xammalın emalı" laboratoriyasının müdiri, professor Arif Heydərov, akademik Həbibulla Şahtaxtinskinin həyat və fəaliyyətindən bəhs edən məruzə ilə çıxış edib.

Qeyd olunub ki, zəngin təbii ehtiyata malik tərkibində 40-a qədər qiymətli element olan Filizçay polimetal filizinin kompleks emalı problemi də H.Şahtaxtinskinin elmi fəaliyyətində çox mühüm bir mərhələni təşkil edir. Belə ki, onun bilavasitə rəhbərliyi altında filizin zənginləşməsindən alınan ayrı-ayrı selektiv konsentratların (mis, sink, qurğuşun və pirit), kollektiv konsentratın və birbaşa filizin işlənməsinin yeni texnoloji sxemləri işlənilib hazırlanmışdır.

H.Şahtaxtinskinin yaradıcılığını sovet alimlərindən akademiklər I.V.Tananayev, I.P.Alimarin, H.V.Javoronkov və başqaları yüksək qiymətləndirmişlər. M.V.Lomonosov adına MDU-in kimya fakültəsinin Elmi şurasında H.B.Şahtaxtinskinin Azərbaycan EA-nın həqiqi üzvlüyünə namizədliyini - A.A.Balandin, S.I.Valikoviç, V.A.Karqin, A.N.Nesmenyanov, P.A.Rebinder, A.N.Frumkin və başqaları yekdilliklə müdafiə etmişlər. O, 1967-ci ildə müxbir üzv olmadan birbaşa Azərbaycan EA-nın həqiqi üzvi seçilmişdir.

Alimin əmək fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, akademik H.Şahtaxtinski "Oktyabr inqilabı" ordeni (1971), bir neçə medallar və Azərbaycan SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif olunmuşdur. 1974-cü ildə ona Azərbaycanın Əməkdar elm xadimi fəxri adı verilmişdir. Akademik H.B.Şahtaxtinskinin 125 illik yubileyi ərəfəsində biz alimin irsini, onun elmi uzaqgörənlik istedadını, perspektiv elmi ideyalarını minnətdarlıqla qiymətləndiririk. Onun elmdə yaratdığı yeni istiqamətlər, müstəqil Azərbaycanın iqtisadi potensialının yüksəldilməsi və ehtiyatların səmərəli istifadə olunması üçün bu gün xüsusən aktualdır.

Sonra tədbirdə çıxış edən alimin tələbələrindən k.ü.f.d. Əyyub Əzizov onun haqqında ürək sözlərini və xatirələrini iclas iştirakçıları ilə bölüşüb.

Sonda alimin ailəsi adından k.ü.f.d. Rüfət Rüstəmov xoş sözlərə görə institutun rəhbərliyinə və kollektivinə minnətdarlığını bildirib.

# Akademik: İnformasiya texnologiyaları ilə bağlı Azərbaycan alimlərinin araşdırmalarını sistemləşdirərək cəmiyyətə təqdim etməliyik




**Son illər ortaya çıxan yeni texnologiyalar Dördüncü Sənaye İnqilabının əsasını qoyub. Lakin ölkəmizdə süni intellektin tarixi və inkişaf mərhələləri ilə bağlı kifayət qədər məlumat mövcud deyil.**

Bu fikirləri AMEA-nın vitse-prezidenti, Azərbaycan İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunda keçirilən "Kibernetika və informatikanın problemləri" (PCI 2025) VI beynəlxalq konfransında çıxışı zamanı bildirib.

Akademik qeyd edib ki, bu sahədə zəruri bilgilərin toplanması və ictimaiyyətə çatdırılması vacibdir.

O, gənclərin süni intellekt və müasir informasiya texnologiyaları ilə bağlı daha dolğun biliklər əldə etməsinin önəmini vurğulayıb: "Gənclərə anlatmalıyıq ki, istifadə etdiyimiz texnologiyalar birdən-birə yaranmayıb, onların uzun bir inkişaf tarixi var. Mən məsuliyyətlə deyirəm ki, bu istiqamətdə hələ görüləsi çox işlərimiz var. İnformasiya texnologiyaları və idarəetmə sistemləri ilə bağlı Azərbaycan alimlərinin son 60 ildə apardığı araşdırmaları sistemləşdirərək cəmiyyətə təqdim etməliyik".

# Tarixi Zəfər -
## bu dəfə diplomatiya meydanında!

**Avqustun 8-də Ağ evdə, Amerika Birləşmiş Ştatlarının (ABŞ) təşəbbüsü və vasitəçiliyi ilə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması, eləcə də Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması sülhə gedən yolda mühüm tarixi hadisədir.**



Tərəflər bununla yalnız sülhə deyil, bütövlükdə regionun yeni inkişaf mərhələsinə qədəm qoymasına imza atdıqlarını göstərdilər.

Bununla da iki xalq arasında qarşılıqlı anlaşma, birgə əməkdaşlıq, təhlükəsizlik və rifahın təmin olunması üçün möhkəm təməl atıldı.

Qalib tərəf olmağına rəğmən, daim sülh və əməkdaşlığın tərəfdarı olan ölkəmiz tərəflər arasında etimadın möhkəmləndirilməsi, siyasi-iqtisadi münasibətlərin qurulması, ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-kommunikasiya xətlərinin bərpası üçün əməkdaşlığa hər zaman hazır olduğunu bəyan etmişdir.

Bu baxımdan, bu tarixi sənəd regionun sabit və çiçəklənən gələcəyi naminə davamlı sülhə, qarşılıqlı etimada və uzunmüddətli əməkdaşlığa doğru atılmış mühüm addımdır.

Başqa sözlə, Birgə Bəyannamə mövcud postmüharibə dövründə Cənubi Qafqaz regionunun mürəkkəb geosiyasi reallıqları fonunda Sülh sazişinə aparan və konkret yol xəritəsini özündə ehtiva edən önəmli sənəddir.

Onu da qeyd edək ki, hadisələrin bu mərhələyə gəlib çatması heç də asan və təsadüfi olmamışdır. Belə ki, illərlə davam edən münaqişədən sonra əldə edilmiş bu uğur, əlbəttə ki, Prezident İlham Əliyevin istər 44 günlük Vətən müharibəsi, istərsə də bir günlük Anti-terror əməliyyatı zamanı döyüş meydanında Ali Baş Komandan kimi qazandığı parlaq Zəfərin məntiqi davamı olaraq, diplomatiya sahəsində göstərdiyi qətiyyətli və uzaqgörən siyasətin, sarsılmaz liderliyin yekun nəticəsidir.

Məlumdur ki, sülhü qorumaq, bəzən qələbə qazanmaqdan daha çətindir. Bu mənada, cənab Prezidentin bu səfəri yalnız iki ölkə arasında münasibətlərin yeni səhifəsinin açılması baxımından deyil, eyni zamanda uzun illərdən bəri ölkəmizi zəiflətməyə çalışan, onu müəyyən güzəştlərə vadar etməklə öz milli maraqlarından əl çəkməsini istəyən və beləliklə sülh prosesini pozaraq bölgəni yenidən gərginliyə sürükləmək niyyətində olan beynəlxalq güclərin çirkin təzyiq siyasətini açıq şəkildə məğlubiyyətə düçar etdi.

Müdrik dövlət xadimi İlham Əliyev Azərbaycan əsgərinin döyüş meydanında qazandığı parlaq Zəfəri diplomatik sferaya - danışıqlar masasına daşıyaraq rəsmiləşdirdi. Beləliklə, qlobal güclərə qələbədən sülhə keçidin yeni reallığını qəbul etdirməyi bacardı, beynəlxalq münasibətlərdə ölkəmizin mövqeyini möhkəmləndirdi.

Bu baxımdan, əldə olunmuş bu uğur təkcə Zəfərin deyil, eyni zamanda sülhün memarı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyasının qələbə günü kimi tarixə düşəcək böyük və əlamətdar hadisədir.

Qeyd edək ki, bu səfər bir sıra önəmli tarixi hadisələrlə də yadda qaldı. Bunlardan biri ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin ünvanlanması idi.

Bu müraciət, tərəflərin Vaşinqtonda keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamədə də öz əksini tapmışdır.

Beləliklə, ölkəmizin Sülh sazişinin şərtlərindən biri kimi irəli sürdüyü bu tələb də yerinə yetirilmiş oldu və nəticədə səmərəsiz Minsk Qrupu tarixə qovuşdu.

Birgə Bəyannamədə region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin (yeni adı ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP)) yaradılması kimi mühüm müddəalar da öz əksini tapmışdır. Xatırladaq ki, bu tələb də Sülh Sazişinin imzalanması üçün Ermənistan qarşısında Azərbaycan tərəfinin prinsipial şərtlərindən biri idi. Belə ki, cənab Prezident İlham Əliyev daim çıxışlarında da Zəngəzur dəhlizinin mütləq şəkildə reallaşacağını, yalnız bunun zaman məsələsi olduğunu vurğulamışdır.

Beləliklə, dövlət başçımızın müdrik siyasəti nəticəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması haqqında razılaşmanın tələbləri də sənəddə öz təsdiqini tapmışdır. Bu həm də dəhlizin reallaşmasında gələcəkdə yarana biləcək istənilən situasiyaya qarşı ABŞ-nin əsas qarant olduğunun göstəricisidir.

Qeyd edək ki, 42 kilometrlik bu yol yalnız avtomobil və dəmir yolu bağlantıları üçün deyil, eyni zamanda enerji və telekommunikasiya xətlərinin keçidinə də geniş imkanlar yaradacaqdır.

Avropanı Asiya ilə birləşdirəcək bu unikal yol regionun enerji və nəqliyyat xəritəsini tamamilə dəyişəcək, ölkələr arasında ticarət əlaqələrini sürətləndirəcək və nəticədə ölkəmiz tranzit ölkə kimi ixrac imkanlarını artıraraq dünya iqtisadiyyatına daha sürətli şəkildə inteqrasiya olunacaqdır.

Zəngəzur dəhlizi (TRİPP) Türk Birliyi ölkələri arasında mövcud münasibətləri də dərinləşdirərək, Azərbaycanı Türkiyə və digər Türk dövlətləri ilə daha da sıx birləşdirəcəkdir.

Beləliklə, Cənubi Qafqazın geoiqtisadi xəritəsini dəyişdirə biləcək potensiala malik Zəngəzur dəhlizi (TRİPP) bir növ regionda hökmranlıq etmək istəyən tərəflərin mənfi təsirini zəiflədərək mövcud güc balansını da formalaşdıracaqdır.

Onu da qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın dəvəti ilə baş tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Vaşinqtona səfəri yalnız regionda davamlı sülh və sabitliyin bərqərar olması baxımından deyil, həm də Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişafı üçün böyük tarixi əhəmiyyət daşıyır.

Belə ki, iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məsələlərinin müzakirəsi və bu məqsədlə "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanması regionun lider ölkəsi olan Azərbaycanla münasibətlərin ABŞ üçün nə qədər önəmli strateji əhəmiyyət daşıdığını göstərir.

Qeyd edək ki, iki ölkə arasında planlaşdırılan gələcək əməkdaşlıq təkcə siyasi sahəni deyil, eyni zamanda iqtisadi, ticarət, enerji, süni intelekt və rəqəmsal infrastruktur, hərbi və tranzit əhəmiyyətli regional bağlantılar kimi geniş sferaları əhatə edir.

İlk addım olaraq SOCAR-la ABŞ-nin "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanması oldu. Sənəd, şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirməklə yanaşı, Azərbaycan Respublikasında həm ənənəvi, həm də qeyri-ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir.

Bu bir daha sübut edir ki, hazırda dünyanın 14 ölkəsinə mavi qaz nəql edən və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanla enerji sahəsində uzunmüddətli birgə əməkdaşlıq ABŞ üçün olduqca böyük əhəmiyyət kəsb edir.

Ölkəmiz üçün digər önəmli strateji qərarlardan biri də 1992-ci ildən bəri ABŞ tərəfindən haqsız şəkildə tətbiq edilən, keçmişin mənfi mirası - 907-ci düzəlişin ləğvidir ki, bu da olduqca önəmli tarixi hadisədir. Bu düzəliş 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na əlavə edilən Birləşmiş Ştatların birbaşa dövlət yardımını qadağan edən qanunvericilik aktı idi.

Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin statistik göstəricilərinə əsasən, Azərbaycan ABŞ-dən 20 milyon dollar yardım aldığı halda, bu göstərici Ermənistan üçün 92 milyon dollar, Gürcüstan üçün isə 180 milyon dollar təşkil etmişdir. Hazırda müharibə şəraitində olan və işğalla mübarizə aparan Ukrayna hökuməti isə ABŞ-dən on milyardlarla dollar yardım almaqdadır. Lakin çox təəssüflər olsun ki, vaxtilə bu şəraitlə üzləşən Azərbaycan isə bu müddətdə tamam başqa münasibətlə qarşılaşmışdı.

Lakin erməni diasporlarının oyuncağına çevrilmiş öncəki ABŞ hökümətlərindən fərqli olaraq, Donalt Tramp administrasiyası 33 ildir qüvvədə olan və ABŞ qanunvericiliyinə, demokratiyaya qara ləkə gətirmiş bu yalnış və ədalətsiz qərarı ləğv etməklə ABŞ-Azərbaycan münasibətlərində itirilmiş güvən və etimadı bərpa etdi.

Beləliklə, yüksək liderlik keyfiyyətlərinə malik Prezident İlham Əliyevin çoxşaxəli siyasi-diplomatik uğurları nəticəsində bu gün nəinki sülh prosesində, eyni zamanda Azərbaycan-Amerika münasibətlərində də yeni və parlaq səhifə açıldı.

Nəticə etibarilə, atılan bu addımlar, imzalanan sənədlər yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında tarixi sülh müqaviləsinin imzalanmasına və Cənubi Qafqazın gələcək siyasi-iqtisadi strukturunun formalaşmasına töhvə verəcəkdir.

Bu, yalnız münaqişənin sonu deyil, həm də haqq-ədalətin zəfəri - yeni əməkdaşlıq, inkişaf və sabitlik dövrünün başlanğıcıdır.

Beləliklə, bu gün biz azərbaycanlılar qürurla deyə bilərik: Azərbaycan qalibdir - həm döyüşdə, həm də diplomatiyada!

**Coşqun MƏMMƏDOV**
**AMEA Rəyasət Heyətinin elmi katibi**

YENİ NƏŞRLƏR

## Şərqşünaslıq İnstitutunda akademik Ziya Bünyadovun əsərləri çapdan çıxıb

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda akademik Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" və "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" monoqrafiyaları "Elm" nəşriyyatında işıq üzü görüb.**




Akademikin bu əsərlərinin Azərbaycan dilindəki bu nəşri rus dilində olan orijinal əsasında indi yenidən işlənib və təkmilləşdirilərək Azərbaycan dilində çapdan çıxıb. Nəşrin elmi redakoru AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir.

2 cilddə çap olunan bu kitabların 1-cisi "Azərbaycan VII-IX əsrlərdə", 2-cisi "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" monoqrafiyasını əhatə edir.

1-ci cildin əvvəlində əsərdən öncə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı, akademik İsa Həbbibbəylinin "Akademik Ziya Bünyadov haqqında söz" və akademik Gövhər Baxşəliyeva ilə tarix elmləri doktoru Fərda Əsədovun "Ölümsüzlüyə qovuşan ömür" başlıqlı ön sözləri yer alıb.

Azərbaycan tarix elminin ən fundamental əsərlərindən biri olan "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyasında ərəb hakimiyyəti dövründəki tariximiz nəzərdən keçirilir, həmin hakimiyyətin aradan qaldırılması ilə nəticələnən və xalqımızın təşəkkül tarixində yeni səhifə açan sosial-iqtisadi və siyasi proseslər, onların səbəb və şəraiti xarakterizə edilir. İlk dəfə 1965-ci ildə rus dilində çap olunmuş əsərdə geniş şəkildə tədqiqata cəlb olunmuş ərəb, fars, türk, erməni, gürcü mənbələrinin, o vaxtadək məlum olmayan və çətin əldə edilən yazılı abidələrin dərin tədqiqi və təhlili sayəsində ərəb işğalı ərəfəsində və xilafət dövründə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatı hərtərəfli təhlil olunub, Azərbaycanın orta əsrlər tarixinə dair bir sıra mühüm problemlər ətraflı şəkildə araşdırılaraq öz həllini tapıb. Əsərdə xilafətə qarşı xalq kütlələrinin mübarizəsinə xüsusi yer verilib, Babəkin başçılıq etdiyi xürrəmilər hərəkatı geniş şəkildə işıqlandırılıb. Əsər giriş, 5 fəsil, əlavələr və istifadə olunmuş mənbələrin və ədəbiyyatın sıyahısından ibarətdir.

İlk dəfə 1978-ci ildə rus dilində nəşr olunmuş "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" adlı monoqrafiyada səlcuq dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafı araşdırılıb. Kitabda Azərbaycanın o dövrdəki siyasi tarixi məsələləri ilə yanaşı XII əsrin ikinci yarısı - XIII əsrin birinci rübündə Orta Şərqin feodal sülalələrinə mənsub hökmdarların qurduğu dövlətlərin, o cümlədən, Azərbaycan Eldəniz Atabəyləri dövlətinin dövrün siyasi və mədəni həyatında mühüm rol oynadığı göstərilir. Əsərdə həmçinin o dövrdə Qafqazda siyasi şəraiti xarakterizə edən bir çox qiymətli materiallar yer alır. Monoqrafiyada Azərbaycanın və qonşu ölkələrin orta əsr tarixinə dair bir sıra problemlərin həlli, kifayət qədər öyrənilməmiş məsələlərin tədqiqi üçün böyük əhəmiyyət kəsb edən əsaslı elmi nəticələr əldə edilib, bununla da feodalizm dövrü tarixinin başlıca problemlərinin, Şərqdə feodalizmin inkişafının ümumi qanunauyğunluqları və fərdi xüsusiyyətləri kimi mühüm nəzəri məsələlərin həllinə böyük töhfə verilib. Əsər giriş, 8 fəsil, şərhlər və ədəbiyyatın sıyahısından ibarətdir.

## Azərbaycançılıq məfkurəsi

**Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatında "Azərbaycançılıq məfkurəsi" adlı biblioqrafik göstərici işıq üzü görüb.**




"Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş kitabın elmi məsləhətçisi və "Ön söz"ün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, tərtibçisi "Elm" nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov, redaktoru isə AMEA Rəyasət Heyəti Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Sərxan Xavəridir.

Kitabda Azərbaycançılıqla bağlı müxtəlif illərdə işıq üzü görmüş nəşrlər - kitablar, dissertasiyalar, avtoreferatlar, məqalələr və s. sistemli şəkildə toplanılıb. Burada materiallar illər üzrə, əlifba sırası ilə verilib. Nəşr XX əsrin əvvəllərindən etibarən milli ədəbi-ictimai fikirdə əsas yer tutmuş, müstəqillik illərində isə Azərbaycan tarixində ilk dəfə olaraq dövlət ideologiyası səviyyəsinə qaldırılmıs və dünya azərbaycanlılarının milli-mənəvi birliyinin rəmzi olan Azərbaycançılığa, eləcə də "Konstitusiya və Suverenlik İli"nə dəyərli töhfədir. Azərbaycan, rus və digər xarici dillərdə materiallar toplanmış bu göstəricidən istifadəni asanlasdırmaq məqsədilə köməkçi aparat tərtib olunub.

"Azərbaycançılıq məfkurəsi" biblioqrafik göstəricisi elmi tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

## Azərbaycan Milli Elmlər Akademiyası: biblioqrafiyaların biblioqrafiyası

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik, "Elm" nəşriyyatının isə 100 illik yubileylərinə həsr olunmuş "Azərbaycan Milli Elmlər Akademiyası: biblioqrafiyaların biblioqrafiyası" adlı nəşr çapdan çıxıb.**




"Elm" nəşriyyatı tərəfindən çap edilən bu kitab Azərbaycanda biblioqrafiyalaşdırma praktikasında sahəvi biblioqrafik vəsaitlərin biblioqrafik göstəricisinin hazırlanması istiqamətində ilk təşəbbüsdür. Biblioqrafiyanın elmi məsləhətçisi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, tərtibçisi "Elm" nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov, redaktoru isə filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənlidir.

Nəşr AMEA Rəyasət Heyətinin müvafiq Qərarı ilə təsdiq olunmuş "Elm" nəşriyyatının 100 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər planı çərçivəsində hazırlanıb. Kitabda ötən əsrin ortalarından hazıradək işıq üzü görmüş AMEA-nın həqiqi və müxbir üzvlərinə həsr olunmuş biblioqrafik vəsaitlər barədə məlumatlar sistemli şəkildə toplanıb. Göstəricidə materiallar xronoloji ardıcıllıqla, onun daxilində isə şəxsi göstəricilərin adları əlifba sırası ilə təqdim edilib, istifadəni asanlaşdırmaq üçün soraq axtarış aparatı tərtib olunub. Nəşrin əsas məqsədi elmi biblioqrafiyadan səmərəli istifadəyə şərait yaratmaq, ölkədə biblioqrafik repertuarın formalaşmasına töhfə verməkdir.

Kitab elmi tədqiqatçılar, kitabxanaçılar, biblioqraflar, eləcə də elm tariximizlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Sənətşünaslıqda intellekt və hissin harmoniyası

*Gözəlik... intellekt və həssaslığın birləşməsidir, və bu qarşılıqlı nüfuz əsl reallıqdır.*

*Q. Hegel. "Estetikadan mühazirələr"*

**Hegelin bu sözləri sənətdə dərin məna axtaran hər kəs üçün mantra kimi səslənir. Yaradıcılığın həqiqi dərki ciddi təhlilin incə sensor qavrayışla birləşdiyi, rasional və estetikanın bir-birinə qarışdığı, mədəni irs haqqında tam anlayışın formalaşdığı yerdə doğulur. Məhz rasional təhlil və duyğu qavrayışının vəhdəti sayəsində alim bədii əsərlərin dərin mənalarına nüfuz edə bilir, onların daxili harmoniyasını, mədəni əhəmiyyətini üzə çıxara bilir.**



İncəsənət həmişə vahid bir bütöv kimi qəbul edilir: musiqi, memarlıq və dekorativ-tətbiqi sənət eyni mədəni və estetik dəyərləri əks etdirir. Musiqi əsərlərinin ritmi və harmoniyası dekorativ sənətin memarlıq formaları və ornamentlərinin nisbətləri ilə səsləşir, simvolizm və ifadəlilik isə bütün sənət növlərinin bir-birini qarşılıqlı zənginləşdirdiyi ümumi bədii ab-hava yaradır.

XX-XXI-ci əsrlərdə sənətşünaslıq bir elm olaraq müstəqil humanitar bilik sahəsinə çevrildi və bu prosesdə ömrünü sənət tarixinin və nəzəriyyəsinin öyrənilməsinə həsr etmiş görkəmli alimlərin xüsusi rolu var. Onların arasında elmi-pedaqoji fəaliyyəti ilə milli elmin və mədəniyyətin inkişafına mühüm töhfələr vermiş elmlər doktoru, professor, Elmlər Akademiyasının müxbir üzvü Ərtegin Salamzadənin adı ön sıralardadır. Ciddi metodoloji yanaşmanı sənət əsərlərinin dərin nəzəri qavrayışı ilə birləşdirərək, yerli və dünya sənətşünaslığının inkişafına nəzərəçarpacaq dərəcədə təsir göstərən özünəməxsus elmi üslub yaratmışdır.

Aparılmış tədqiqatlar nəticəsində XX əsrin mədəni-tarixi və estetik ideyaları kontekstində Azərbaycan sənətşünaslıq fikrinin təkamülü izlənilmiş, milli sənətşünaslıq məktəbinin formalaşmasında qlobal, regional və yerli amillərin rolu aşkar edilmiş, tarixi sənətşünaslığın problemləri kompleksi təhlil edilmişdir. Ə.Salamzadə Azərbaycanda tarixi sənətşünaslıq problemlərinin təhlilində ilk dəfə olaraq dəqiq elmlərin metodlarından istifadə edib. Və, məhz bu istiqamət, onun elmi yeniliyini müəyyənləşdirib. Sistemli triadalar metodundan istifadə Azərbaycan incəsənət tarixinin fakt və hadisələrinin empirik, təsviri mərhələdən izahlı mərhələyə keçid yollarını göstərən sənətşünaslığın yeni mədəni-tarixi modelini yaratmağa imkan verdi. O, yaradıcılığında həmişə belə bir sintezə can atırdı: hərtərəfli metodoloji yanaşma ilə estetik detalların diqqətlə qavranılmasını birləşdirərək, bədii irs və onun mədəniyyətdəki yeri haqqında yeni fikirlər formalaşdırdı.

Ərtegin Salamzadənin son nailiyyətlərindən biri də ölkədə yeni bir sahənin - türkoloji sənətşünaslığın formalaşması oldu. Türk sənəti tarixinin dövrləşdirilməsinin metodoloji əsasları işlənib hazırlanmış, Azərbaycan və türk sənətinə xas olan çoxsaylı arxetipik motivlər, kompozisiyalar, forma və simvollar tədqiq edilmişdir. Onun əsərləri intellektual təhlil və hiss qavrayışının dərin birləşməsini əks etdirir ki, bu da Hegelin sənətin əsl reallığında intellekt və hissiyyatın birləşməsi ideyasının təcəssümüdür.

Ərtegin Salamzadə akademik Əbdülvahab Salamzadənin ailəsində anadan olub, onun dünyagörüşünün və peşə maraqlarının formalaşmasında, təbii ki, ailə mühiti mühüm təsir göstərib. Ailə mədəniyyətə, təhsilə, milli adət-ənənələrə hörməti ilə seçilirdi ki, bu da incəsənət və tarixlə erkən tanışlıq üçün əlverişli zəmin yaradırdı. Onun atası memar, sənətşünaslıq doktoru, akademik, Azərbaycanın əməkdar inşaatçısı, Azərbaycanın əməkdar elm xadimi Əbdülvahab Salamzadə ölkənin memarlıq abidələrini sistemli şəkildə tədqiq edən ilk azərbaycanlı alim olub. O, Naxçıvan və Şirvan memarlıq məktəblərini öyrənmiş, Təbriz və Aran memarlıq məktəblərini müəyyən etmiş, Naxçıvanda Möminə Xatun və Yusif ibn Küseyir məqbərələrinin, eləcə də Qarabağlar kəndindəki məqbərənin bərpasında fəal iştirak etmişdir.

Ərtegin Salamzadə uşaqlıqdan estetik tərbiyə ilə bağlı dəyərləri və mədəni irsin öyrənilməsinə elmi yanaşmanı mənimsəmişdir. Ailə münasibətləri onun təməlli şəkildə gələcək yolunu müəyyənləşdirdi: sənəti dərindən öyrənmək istəyi, fəlsəfi anlayışın və elmi təhlilin ahəngdar birləşməsi, habelə bədii hadisələrin öyrənilməsinin metodoloji aspektlərinə xüsusi diqqət. Artıq ilk tədqiqatlarında o, intellektual və həssas olanı birləşdirmək bacarığını nümayiş etdirdi ki, bu da sonradan onun metodologiyasının fərqli xüsusiyyətinə və əsas töhfəsinə çevrildi.

Alim sənətşünaslıq sahəsində fundamental təhsil almışdır ki, bu da sonralar onun elmi tədqiqatlarının əsasına çevrilmişdir. Ali məktəbi bitirdikdən sonra o, elmi-tədqiqat və pedaqoji işlərlə fəal məşğul olmuş, 1992-ci ildə Bakıda namizədlik, və 2002-ci ildə isə Moskvada doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Alimin elmi karyerası ölkənin aparıcı universitetlərində və elmi institutlarda işləməsi ilə bağlıdır. Onun professor, Elmlər Akademiyasının müxbir üzvü kimi tanınması uzun illər əməyinin məntiqi nəticəsi idi.

Onun tədqiqatlarının əsas istiqaməti bədii irsin, onun tarixi-mədəni kontekstlərinin və nəzəri aspektlərinin tədqiqi ilə bağlıdır. Alimin həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda rəğbət qazanmış onlarla monoqrafiyası, elmi məqaləsi və metodiki vəsaiti çap olunub. Onun əsərlərində mədəni irsin qorunması, fənlərarası yanaşma və qlobal mədəni proseslər kontekstində incəsənətin dərk edilməsi problemlərinə xüsusi diqqət yetirilir. Onun elmi əsərləri bir çox gənc sənətşünasların gələcək tədqiqatları üçün əsas və önəmli mənbədir.

Fəaliyyəti dövründə Ərtegin Salamzadə sənət tarixi sahəsində geniş spektrli məsələləri araşdırıb. İşinin əsas istiqamətləri arasında:

1. İncəsənət tarixinin nəzəriyyəsi və metodologiyası - sənətin öyrənilməsinə sistemli yanaşmanın inkişafı, tarixi və bədii məlumatların təhlilinə dəqiq elmlərin metodlarının tətbiqi, yeni mədəni-tarixi tədqiqat modellərinin formalaşdırılması.

2. Azərbaycan incəsənətinin tarixi - milli təsviri, dekorativ-tətbiqi sənətin və memarlığın təkamülünü dərindən təhlil edir, bədii ənənələrin formalaşmasına regional və yerli amillərin təsirini müəyyənləşdirir.

3. Türkoloji sənətşünaslıq - Azərbaycan və türk sənətinə xas olan arxetipik motivlərin, kompozisiyaların, forma və simvolların tədqiqi, türk sənət ənənəsinin dövrləşdirilməsi üçün metodoloji əsasların işlənib hazırlanması.

4. Mədəni-tarixi təhlil - estetik və fəlsəfi yanaşmaların inteqrasiyası, bədii hadisələrlə sosial-mədəni kontekst arasında əlaqənin müəyyənləşdirilməsi, tarixi proseslərin bədii məktəb və üslubların formalaşmasına təsirinin öyrənilməsi.

Alim uzun illərdir ki, fəaliyyətini tələbə, magistr, dissertant və doktorantların hazırlanmasına həsr etmişdir. Onun rəhbərliyi altında çox sayda fəlsəfə və elmlər doktorları yetişmişdir. Onun yetirmələri öz dissertasiyalarında Ərtegin Salamzadənin elmi-nəzəri təhlillər, metod və metodoloji araşdırma üslubunu davam etdirirlər.

Konfransların, simpoziumların, elmi toplulaların təşkilində fəal iştirak edən alim, sənətşünaslıq sahəsində elmi dialoqun inkişafına təşviq edib. Ə.Salamzadənin xidmətləri çoxsaylı dövlət və akademik mükafatlarla qiymətləndirilib. O, müxtəlif beynəlxalq elmi birliklərin üzvüdür, nüfuzlu forumlarda məruzələrlə çıxış edir.

Professor, elmlər doktoru, Elmlər Akademiyasının müxbir üzvünün elmi, pedaqoji və ictimai fəaliyyəti onun sənətşünaslığın inkişafındakı müstəsna xidmətlərindən xəbər verir. Onun əsərləri və yaratdığı elmi məktəb müasir incəsənət anlayışına təsir etməkdə davam edir və gələcək tədqiqatlar üçün möhkəm zəmin rolunu oynayır.

Alimin əsas nəşrləri sırasında Azərbaycan incəsənətini dərk etmək üçün əsaslı hala gələn və dünya incəsənət tarixinin inkişafına töhfə verən monoqrafiyalar, məqalələr və tədqiqatlar var. Sistemli yanaşmadan istifadə edərək, sənət tarixinin fakt və hadisələrinin empirik təsvirdən izahlı modelə keçid yollarını ilk dəfə göstərən Ərtegin Salamzadə milli bədii irsin daha geniş mədəni-tarixi kontekstdə dərk edilməsinə imkan yaradıb.

Salamzadənin metodoloji yanaşması ciddi elmi təhlili sənətin estetik və fəlsəfi aspektlərinin diqqətlə qavrayışı ilə birləşdirir. Rasional və hissiyyatın bu sintezi ona təkcə tarixi prosesləri yenidən qurmağa deyil, həm də bədii formaların, motivlərin və simvolların daxili inkişafı qanunlarını müəyyən etməyə imkan verir.

Ərtegin Salamzadənin Azərbaycan elminin inkişafındakı xidmətləri akademik ictimaiyyətdə yüksək qiymətləndirilmişdir: onun əsərlərindən tədqiqatçılar fəal istifadə edirlər, onun metodik işlənməsi sənətşünaslıq və mədəniyyətşünaslıq sahəsində sonrakı tədqiqatlar üçün əsas olmuşdur.

Hazırda Ərtegin Salamzadə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutuna rəhbərlik edir. Rəhbər kimi ciddi və tələbkardır, eyni zamanda duyğusal, nəcibliyi və insanlara diqqəti xüsusi qeyd olunmalı özəlliklərindən biridir. Onun təfərrüata diqqəti və işi təşkil etmək bacarığı hər bir işçinin özünü İnstitutun ayrılmaz bir hissəsi kimi hiss etməsinə əsas verir. Fikrini konkret və peşəkarlıqla ifadı etmək qabiliyyəti xüsusi hörmət oyadır, lakin füsunkar təbəssümü isə hərarət və inam hissi yaradır.

Yazılanlar bir daha onu göstərir ki, Ərtegin Salamzadə yalnız böyük alim deyil, həm də bütün insani keyfiyyətləri özündə cəmləşdirən nümunəvi rəhbərdir.

Ərtegin Salamzadənin yaradıcılığı intellekt və hissin ahəngdar birləşməsinin simvoluna çevrildi - Hegelin XIX əsrdə ifadə etdiyi ideyanın özü: həqiqi bədii və elmi reallıq rasional və estetikanın bir-birinə nüfuz etməsi nəticəsində yaranır. Alimin 60 illik yubileyi ərəfəsində onun sənət tarixinə verdiyi töhfələr aktuallığını davam etdirir, yeni mütəxəssisləri mədəni irsi dərindən öyrənməyə, incəsənət sahəsində elmi fikrin inkişafına təkan verir.

